# VƏKİLLƏR VƏ VƏKİLLİYƏ NAMİZƏDLƏR ÜÇÜN TƏDRİS MATERİALI

**Gender əsaslı zorakılıq qurbanlarına hüquqi yardım: milli və beynəlxalq müdafiə mexanizmləri**

**2021**

Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu

AZƏRBAYCAN RESPUBLİKASININ VƏKİLLƏR KOLLEGİYASI

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi



Bu tədris vəsaiti vəkillər və vəkilliyə namizədlərin gender əsaslı zorakılıqdan zərər çəkmiş şəxslərə hüquqi yardımın göstərilməsi və qanuni nümayəndəlik xidmətləri üzrə bilik və təcrübələrinin artırılması məqsədilə hazırlanıb.

## Layihənin idarə heyəti:

**Anar Bağırov,** Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının Sədri
**Taliyə İbrahimova,** Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri
**Bəhicə Əliyeva,** BMT-nin Əhali Fondunun (UNFPA) Azərbaycandakı Nümayəndəliyinin Gender üzrə Proqram müşaviri
**Fərhad R. Nəcəfov,** Vəkillər Kollegiyası Rəyasət Heyətinin Aparatının rəhbəri

## Müəlliflər:

**Xalisə Şahverdiyeva,** hüquqşünas, gender üzrə mütəxəssis, ekspert qrupunun rəhbəri
**Aytən Mirzəzadə,** Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü, vəkil
**Aysel Əhmədova,** Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü, vəkil
**Günay Cəfərli,** Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü, vəkil

## Layihə haqqında:

Azərbaycanda “Qadınlara və qızlara qarşı zorakılıqla mübarizəyə həsr olunmuş 16 Günlük Fəallıq” kampaniyası çərçivəsində məişət zorakılığından zərər çəkmiş şəxslərə keyfiyyətli hüquqi yardımın təmin edilməsi istiqamətində birgə səylərin gücləndirilməsi və müvafiq tədbirlərin həyata keçirilməsi məqsədilə 13 dekabr 2019-cu il tarixində Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK), Azərbaycan Respublikasının Vəkillər Kollegiyası və Birləşmiş Millətlər Təşkilatının Azərbaycan nümayəndəliyi arasında üçtərəfli Anlaşma Memorandumu imzalanmışdır.

Sözügedən Memorandumun icrasına töhfə vermək və Azərbaycanda məişət zorakılığından zərər çəkmiş şəxslərin hüquqlarının və qanuni mənafelərinin hüquq-mühafizə orqanlarında və məhkəmələrdə müdafiəsi üzrə dəstəyin verilməsi, eləcə də hüquqi nümayəndəliyin təşkili, vəkillərin ixtisaslaşdırılması, Vəkillər Kollegiyası ilə yerli yardım mərkəzləri arasında əməkdaşlıq və əlaqələndirmə mexanizmlərinin gücləndirilməsi məqsədilə, Birləşmiş Millətlər Təşkilatının (BMT) Əhali Fondu 2020-ci ilin fevral ayından etibarən Vəkillər Kollegiyası ilə birgə layihə icra etməyə başlayıb. Bu layihə çərçivəsində Vəkillər Kollegiyasının üzvləri və üzvlüyünə namizədlər üçün nəzərdə tutulan təlim və icbari təhsil proqramı çərçivəsində "Gender əsaslı zorakılıq qurbanlarına hüquqi yardım: milli və beynəlxaq müdafiə mexanizmləri" üzrə bu Tədris vəsaiti hazırlanmışdır.

# MÜNDƏRİCAT

**I BÖLMƏ: Gender əsaslı zorakılıq**

**1-ci fəsil**

**Gender əsaslı zorakılıq: mahiyyəti, formaları və tərifləri**

1.1. Gender əsaslı zorakılığın mahiyyəti və formaları............................................8
1.2. Gender əsaslı zorakılığın tərəfləri..................................................................13
1.3. Gender əsaslı zorakılığın Azərbaycanda yayılma səviyyəsi...........................14

**2-ci fəsil**

**Gender əsaslı zərakılıqla mübarizə üzrə hüquqi çərçivə: milli qanunvericilik və beynəlxalq yanaşma**

2.1. Milli qanunvericilik çərçivəsi:.............................................................................16
i. "Məişət zorakığının qarşısının alınması haqqında" ARQanunu.........................16
ii. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi..................................17
iii. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi..............................................18

2.2. Beynəlxaq hüquqi çərçivə:...................................................................................21

i. BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyası............................................................................................21
ii. Avropa İnsan Hüquqları Konvensiyası...............................................................24
iii. Avropa Şurasının Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Konvensiyası (İstanbul Konvensiyası)...........................................................................................33

**II BÖLMƏ: Gender əsaslı zorakılıq qurbanlarına hüquqi yardım: milli və beynəlxalq müdafiə mexanizmlər"**

**3-cü fəsil**

**Məişət zorakılığına məruz qalmış şəxslər üçün təminatlar (xidmətlər)**

3.1. Səhiyyə və sosial xidmətlər…...............................................................................36
3.2. Hüquqi xidmətlər...................................................................................................37
3.3. Qabaqlayıcı tədbirlər (müdafiə mexanizmlərinin müyəssərliyi.......................38
3.4. Xidmətlərin əlaqələndirilməsi..............................................................................39

## 4-cü fəsil

## Məişət zorakılığı barədə şikayətlərin araşdırılması zamanı qurbanların hüquqi müdafiəsi

4.1. Şikayətlərin müvafiq orqanlarda araşdırılmasının xüsusiyyətləri. Effektivlik.........................................................................41
4.2. Gender əsaslı zorakılıqla bağlı cinayət işində vəkilin yaddaş vərəqəsi...................................................................................48
4.3. Qısamüddətli və uzunmüddətli mühafizə orderlərinin alınması.............51
4.4. Ədalət mühakiməsi. Adekvat cəzanın labüdlüyü və kompensasiya tələbi..........................................................................53
4.5. Ailə mübahisələrinə mülki mühakimə icraatı qaydasında məişət zorakılığı məsələləri..........................................................................55

## 5-ci fəsil

## Məişət zorakılığından zərərçəkmiş şəxslərə hüquqi yardım

5.1.Hüquqi yardımın müyəssərliyi. Pulsuz hüquqi məsləhət, təmsilçilik...........................................................................................57
5.2.Konfidensiallıq və effektiv ünsiyyət........................................................61
i. İnsan haqlarına əsaslanan yanaşma.........................................................61
ii. Ayrı-seçkiliyin yolverilməzliyi...............................................................61
iii. Günahlandırmama..................................................................................62
5.3. Zərər çəkmiş şəxslə ilkin müsahibə və sübutların toplanması…......…....65
5.4. Gender əsaslı zorakılıq qurbanlarına ödənişsiz hüquqi yardımın (“pro bono”) göstərildiyi işlərdə meydana çıxan risklər…………….............67

# I BÖLMƏ
# Gender əsaslı zorakılıq

## 1-ci fəsil

## Gender əsaslı zorakılıq: mahiyyəti, formaları və tərəfləri

### 1.1. Gender əsaslı zorakılığın mahiyyəti və forlamaları

Son onilliklər ərzində bütün dünyada qadın hüquqlarının qorunması və gender bərabərliyinin təmin edilməsi sahəsində əhəmiyyətli uğurlar əldə edilsə də, erkən nikahlar, gender əsaslı zorakılıq və məişət zorakılığı kimi bir sıra problemlər hələ də qalmaqdadır. Gender bərabərliyinin təmin edilməsi sahəsində mövcud olan problemlər bir çox ölkələrdə sosial-iqtisadi tərəqqiyə mane olur və cəmiyyətdə sosial ədalətsizliyin dərinləşməsi ilə nəticələnir.

***"Gender" termini özündə nəyi ehtiva edir?***

Bir çox beynəlxalq sənədlərdə "gender" termini cəmiyyətin qadın və kişi üçün uyğun hesab etdiyi sosial rollar, davranışlar, fəaliyyətlər və əlamətlər kimi təsvir olunmuşdur. Beləliklə, müxtəlif cəmiyyətlərdə mövcud olan gender rolları, mədəni normalar və ayri-seçkiliyi əks etdirən stereotiplər qadın və kişi münasibətlərində qeyri-bərabərliyə səbəb olur və qadını kişi ilə müqayisədə daha aşağı səviyyədə təqdim edir ki, bu da zorakılığı, təhdidi və qorxunu daha "məqbul" göstərə bilər.

**Gender bərabərliyi** - qadın və kişilərin hüquq bərabərliyi və bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanlar, habelə qadın və kişilərin cəmiyyətdə bərabər sosial vəziyyətinə dəlalət edir. Bərabər imkanlar isə, insan hüquqlarının həyata keçirilməsində qadınlar və kişilər üçün yaradılan bərabər şərait və təminatlara aiddir.

***Gender əsaslı zorakılıq nədir?***

**Zorakılıq** (hərfi mənası "hücum etmək" deməkdir) - qarşı tərəfi və ya tərəfləri öz istəyinə və mənafeyinə uyğun davranması üçün ona zor tətbiq etmək və ya zor tətbiq etməklə hədələmək deməkdir.

**Gender əsaslı zorakılıq** - gender bərabərsizliyindən qaynaqlanan və qeyri-bərabər güc münasibətlərinə söykənən, insanın cinsiyyətinə və gender mənsubiyyətinə görə ona qarşı yönəlmiş, əks cins üzərində hökmranlıq niyyətindən irəli gələn zorakılıq əməlidir. "Gender-əsaslı zorakılıq və "qadınlara qarşı zorakılıq" terminləri istər ədəbiyyatda, istərsə də bu sahədə işləyən peşəkarlar tərəfindən çox zaman eyni mənada işlədilir. Bu terminlərin tərifini verərkən istifadə olunan məlumat çox fərqli olmasa da, müxtəlif ifadələrin işlənməsi qadınlara qarşı zorakılığın müxtəlif aspektlərinə diqqəti çəkmək və onları vurğulamaq zərurətindən irəli gəlir.

Birləşmiş Millətlər Təşkilatı **qadına qarşı zorakılığı** "qadınlara fiziki, cinsi və ya psixoloji zərər və xəsarətlə nəticələnən və ya nəticələnə biləcək zorakılıq növü kimi ictimai, yaxud şəxsi həyatda baş verən cinsi əlaqəyə təhrik etmə, və ya azadlıqdan şərti olaraq məhrum etmə kimi hədələyici hərəkətlər də daxil olmaqla, hər hansı bir gender əsaslı zorakılıq halı" kimi müəyyən etmişdir (BMT Baş Assambleyasının 1993-cü ildə qəbul etdiyi Qadın Əleyhinə Zorakılığın Bütün Formalarının Aradan Qaldırılması haqqında 48/104 saylı qətnamə).

Gender əsaslı zorakılıq halları qadınların həyatının bütün mərhələlərində baş verə bilər. Misal üçün, doğulduqdan sonrakı dövrdə körpə qızların öldürülməsi, uşaqlıq və yeniyetməlik dövründə məcburi nikaha və cinsi istismara məruz qalma, və yaxud da yetkinlik yaşından sonra ailədə, iş yerində, intim partnyorla münasibətlərdə şiddətə, cinsi istismara və ya təcavüzə məruz qalma və s. hallar bu qəbildəndir.

Gender əsaslı zorakılıq əksər hallarda məişət zorakılığı formasında təzahür etsə də, bu zorakılıq halları əmək münasibətləri və digər ictimai-siyasi fəaliyyət sahələrində də, yəni qeyri-məişət zəminində də baş verə bilər.

***Gender əsaslı zorakılığın forlamaları hansılardır?***

Qadınlara qarşı zorakılıq fiziki, psixoloji, iqtisadi və cinsi zorakılıq kimi bir neçə formada özünü büruzə verir. Eyni zamanda, qadın və qızlara qarşı tətbiq edilən zorakılıq da müxtəlif şəkildə təzahür edir. Belə ki, zorakılığın müəyyən şəraitə, ölkəyə və ya bölgəyə daha çox xas olan formaları mövcuddur.

Zorakılığın təzahür etdiyi müxtəlif formalar bir-birilə əlaqəli şəkildə mövcud olsa da, onların fərqlərini qruplaşdırmaq və anlamaq olduqca əhəmiyyətlidir.

**a) Fiziki zorakılıq**

Fiziki zorakılıq "üzündən sadəcə bir sillə vurmaq" dan tutmuş öldürmək cəhdi və qətl ilə nəticələnə bilər (Akın, Özberk Anlı, Üner, 2009). Buraya itələmək, sillə vurmaq, vurmaq, təpikləmək, boğmaq, silahla hücum, tutub saxlamaq, bağlamaq və ya gizli saxlamaq, təhlükəli yerdə qoyub getmək, xəstə və ya yaralı olduğu halda yardım göstərməmək kimi zorakılıq halları daxildir.

Fiziki zorakılıq çox zaman zədələr, kontuziya, yırtıq, yarıq, dişlərin tökülməsi, sınıqlar və ya kəsilmə kimi zədələrə səbəb ola bilər. Zorakılıq nəticəsində alınan zədələrə çox zaman baş, boyun, boğaz, döş və qarın boşluğunun aşağı nahiyələrində rast gəlinir.

**b) Psixoloji zorakılıq**

Psixoloji zorakılıq hallarına təcrid edilmə (ailədən, dostlardan, həmkarlardan və ictimai şəbəkələrdən və s.), qorxutma, kobud rəftar və hədə-qorxu, təcavüz, təqib, hər hansı bir hərəkətə vadar etmə, təhqir etmə, şərləmə, hədsiz qısqanclıq və digər şəxsin üzərində sahibkarlıq hissi, məhrumiyyət, alçaltma və təhqir, daimi tənqid, ittiham etmə, davamlı günahlandırma, məhəl qoymama, ehtiyacların lağa qoyulması və ya onları yerinə yetirməkdən imtina etmə, yalan danışma, vədinə xilaf çıxma, etibarı itirmə və s. aiddir.

Fiziki və/və ya sosial təcridetmə zorakı partnyorların öz qurbanlarını nəzarət altında saxlamaq, onları zəiflətmək və onların kömək üçün müraciət etməklərinin qarşısını almaq məqsədilə işlətdiyi geniş yayılmış strategiyadır. Qadının öz qohumları və ya dostları ilə əlaqə saxlamağına imkan verməmək, onu məcburi şəkildə evdə saxlamaq, evdən tək çıxmağı qadağan etmək, telefondan istifadə etməyi qadağan etmək və s. tipik təcridetmə üsullarındandır.

**c) Cinsi zorakılıq**

Cinsi zorakılıq hallarına məcburi cinsi əlaqə, o cümlədən qadının iradəsinin əksinə olaraq onu cinsi aktları etməyə məcbur etmə, qadının bunu tam dərk etmədiyi halda, və ya onun icazəsi olmadan və ya imtina etməkdən qorxduğu halda onu cinsi akta cəlb etmə; cinsi əlaqə zamanı ona fiziki xəsarət yetirmə və ya cinsi orqanlarına zərər vurma, habelə ağzına, anus dəliyinə və ya uşaqlıq yoluna əşyaların və ya silahların daxil edilməsi; hamiləlik və ya cinsi yolla ötürülən infeksiyalardan qorunma üsullarından istifadə etmədən cinsi əlaqəyə məcbur etmə; qadını tənqid edib onu cinsiyyətini və ləyaqətini alçaldan sözlərlə təhqir etmə daxildir. Zorakılıq baş verən münasibətlərdə qadınların məruz qaldıqları zorakılığı etiraf etməyə ən çox çətinlik çəkdiyi hallar məhz cinsi təcavüzlə əlaqədardır.

Aşağıdakı hallar da cinsi zorakılıq aktlarını təşkil edir: cinsi təcavüz (o cümlədən karyera iyerarxiyasında irəliləmə, habelə təhsildə daha yüksək qiymətlər almağın müqabilində cinsi əlaqə tələb etmə), cinsi istismar məqsədilə insan alveri, pornoqrafik məzmunu izləməyə vadar etmə, məcburi hamiləlik, məcburi axtalama, məcburi abort, məcburi nikah, qadın sünnəti, bakirəliyin yoxlanması, yaxın qohumlar arasında cinsi əlaqə və s. (ÜST, 2003).

**d) İqtisadi zorakılıq**

Iqtisadi zorakılıq dedikdə ailənin maddi imkanlarından qeyri-bərabər istifadə və nəzarət nəzərdə tutulur. Maddi vəsait verməyib, ya da az miqdarda vəsait verib yüksək gözləntilərə malik olmaq, ailə gəliri, əmanəti və ya xərcləri haqqında məlumatı gizlətmək, qadının maaşı və ya digər gəlirini zəbt etmək, qadınların evdən kənarda işləməsinə imkan verməmək və ya əksinə, qadınları işləməyə məcbur etmək və s. bu kimi hallar da iqtisadi zorakılıq aktlarını təşkil edir.

**e) Zərərli adət-ənənələr**

**Qadın sünnəti (QS):** QS dedikdə mədəni və ya digər qeyri-müalicəvi səbəblərdən cinsiyyət orqanlarının qismən və ya tamamilə kəsilib götürülməsi nəzərdə tutulur. Adətən, bəzi ölkələrdə bunu həyata keçirən ara həkimləri ailələrin, dini qrupların və yerli cəmiyyətin razılığı və dəstəyinə arxalanır (UNRWA, 2012).

**Erkən nikah:** 18 yaşına çatmamış yeniyetmələrin nikahı erkən nikah kimi xarakterizə edilir. Erkən nikah qızların inkişafına mane olan insan hüquqlarının pozuntusunu təşkil edir. Bu, adətən, erkən yaşda hamiləlik, aşağı təhsil səviyyəsi və sosial təcrid olunma, aşağı səviyyəli peşə təhsili ilə nəticələnir və kasıb qadınların sayının artmasına səbəb olur. Erkən yaşda nikaha daxil olmağa vadar edilmiş qız uşaqları ailədaxili zorakılıqla daha çox üzləşir və onların zorakı münasibətlə mübarizə edə bilməsi ehtimalı olduqca azalır. Erkən nikah oğlan uşaqlarına da təsir göstərir. Lakin bu cür nikahlar qızlara qeyri-mütənasib şəkildə təsir göstərir və qızlar üçün bir çox ağır nəticələrə səbəb ola bilər (UNICEF, 2005).

**Məcburi evlilik:** Məcburi evlilik, adətən, valideynlər və ya ailə üzvləri tərəfindən qadının iradəsində/ razılığına zidd olaraq təşkil olunur. Çox zaman bunun müqabilində ailəyə cehiz verilir. Bu cür təşkil olunmuş nikahdan imtina edən qadınlara qarşı zorakılıq tətbiq olunur (UNRWA, 2012).

**Namus naminə qətl:** Qadınların valideynləri, əri, digər ailə üzvləri və ya yerli cəmiyyətin üzvləri tərəfindən ailənin/cəmiyyətin namusunu qorumaq üçün qadınlara yaraşmayan hərəkətlərə görə cəzalandırmaq məqsədilə öldürülməsi namus naminə qətl adlanır (UNRWA, 2012).

**Körpələrin öldürülməsi və/və ya laqeydlik:** Oğlan uşaqlarına nisbətən qız uşaqları cəmiyyət üçün daha az dəyərli sayıldığı üçün onlar öldürülə, yeməkdən məhrum edilə və/ və ya etinasız münasibətlə üzləşə bilərlər.

**Qadınarın təhsil almasına maneələr yaratmaq:** Qızları məktəbdən çıxarmaq, qızların texniki, peşə yönümü və ya əsas akademik biliklər almasına əngəl törətmək və ya qarşısını almaq. Bu zorakılıq əməlləri "Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyasında (İstanbul Konvensiyası, 2011) cinayət əməlləri kimi təsvir edilmişdir.

**Məişət zorakılığı ilə bağlı mümkün risk amilləri hansılardır?**

- Zərər çəkmiş şəxsə, uşaqlara və ya digər ailə üzvlərinə qarşı əvvəllər törədilmiş məişət zorakılığı halları. Zorakılığın baş vermə tarixi və formaları, məhkumluq tarixi, polisə şikayət halları, silahdan istifadə kimi amillər təhlükənin həddini qiymətləndirmək üçün əsas göstəricilərdir.
- Ailədən kənarda zorakı davranış.
- Ayrılma və boşanma yüksək risk dərəcəsinə dəlalət edir.
- Ailənin digər üzvlərinin zorakılıq törədən şəxsi dəstəkləməsi.
- Qanuni və qeyri-qanuni silah əldə etmə, silahdan istifadə və ya silahdan istifadə etməklə təhid etmə halları.
- Alkoqol və ya narkotik maddələrdən sui-istifadə davranış pozuntusuna səbəb olmaqla
- gərginliyin artması ilə nəticələnə bilər.
- Müxtəlif növ təhdidlər, xüsusilə ölumlə hədələmələr ciddi şəkildə nəzərdən keçirilməlidir.
- Həddindən artıq qısqanclıq və hökmranlıq hissləri.
- Həddindən artıq patriarxal yanaşma və münasibətlər.
- Təqib və psixoloji terror.
- Məhkəmə qərarları və polis göstərişlərinə əməl edilməməsi.
- Zorakılıq halında gərginliyin qəfildən artmasına səbəb olan mümkün amillər (münasibətlərdə müşahidə olunan dəyişiklər).

Zorakılıq əməli baş verdiyi və yaxud da baş verə biləcəyi təqdirdə yuxarıda qeyd olunmuş mümkün risk amillərinin hərtərəfli qiymətləndirilməsi müvafiq müdafiə tədbirlərin görülməsi baxımından olduqca önəmlidir.

## 1.2. Gender əsaslı zorakılığın tərəfləri

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununun 4-cü maddəsində qanunun şamil edildiyi şəxslərin dairəsi müəyyən edilmişdir.

***Bu şəxslər aşağıdakılardan ibarətdir:***

- yaxın qohum olan ailə üzvləri (ər, arvad, valideynlər, uşaqlar, nənələr, babalar, nəvələr, doğma və ögey qardaşlar və bacılar, övladlığa götürmüş və övladlığa götürülmüş şəxslər);
- birgə yaşadığı hallarda digər qohumlar;
- nikah pozulduqdan sonra birgə və ya ayrılıqda yaşayan keçmiş ər-arvad;
- qəyyum və ya himayəçi təyin olunmuş fiziki şəxslər, habelə üzərində qəyyumluq və ya himayəçilik təyin edilmiş şəxslər;
- qanuni nikahda olmadan birgə yaşayan kişi və qadın, habelə onlarla birgə yaşayan yaxın qohumları aiddir.

Qanunda məişət zorakılığından zərərçəkmiş şəxsə dair anlayış da verilmişdir. Qanuna görə, məişət zorakılığından zərər çəkmiş şəxs - bir yerdə yaşadığı ailə üzvünün, yaxın qohumunun, qanuni nikahda olmadığı və ya əvvəllər birgə yaşadığı şəxsin ona qarşı qəsdən törətdiyi zorakılıq nəticəsində fiziki və ya mənəvi zərər çəkmiş şəxsdir.

Seksual qısnamanın tərəflərinə gəldikdə isə, məşğulluq (iş və xidmət) və təhsil mühitində olan şəxsin (zərər çəkmiş şəxsin) rəhbər şəxs tərəfindən (seksual qısnamanı törədən şəxs) alçaldılması və təhqir edilməsi, başqa cinsə və ya seksual mənsubiyyətə görə fiziki hərəkətlərin edilməsi (toxunma, əllə vurma), ədəbsiz sözlər, jestlər, hədələr, ləkələyici təkliflər və ya dəvətlərdə təzahür edən əxlaqsız davranışlar edilməsidir. Beləliklə, seksual qısnamanı törədən şəxsin əmək və ya xidmət, eləcə də təhsil sahələrində rəhbər vəzifədə olmasını (məsələn, şirkətin/idarənindirektoru/rəisi, departament və ya şöbə müdiri, supervayser, qrup rəhbəri və s.) və zərər çəkən şəxsin rəhbər şəxsdən birbaşa və ya dolayısı ilə asılı olmasını (işə götürmə, işdə irəli çəkilmə, işdən çıxarma, təhsil alma və s.) nəzərdə tutur.

Gender əsaslı zorakılıqdan zərərçəkmiş şəxslər əksər hallarda qadınlar və yaşı 18-dən aşağı olan qızlardır.

## 1.3. Gender əsaslı zorakılığın Azərbaycanda yayılma səviyyəsi

Gender əsaslı zorakılıq qadınların fiziki, psixi və reproduktiv sağlamlığına çoxsaylı mənfi təsirlər göstərən qlobal sağlamlıq problemidir. Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) əsasən, fiziki və ya cinsi zorakılıq ictimai səhiyyə problemidir və dünyada bütün qadınların üçdə birindən çoxuna təsir edir [1].

Qadınlara qarşı zorakılıqla bağlı məlumatlar müxtəlif mənbələrdən toplanıla bilər. Lakin qadınlara qarşı zorakılığın müxtəlif formalarının xarakteri, yayılma səviyyəsi və nəticələri ilə bağlı kifayət qədər məlumatların olmaması narahatlıq doğurur.

Məlumatların keyfiyyəti və etibarlılığı ilə bağlı ən mühüm çətinliklər isə məlumatları toplanılması prosesində metodoloji çatışmazlıqlar və qadınlara qarşı zorakılıq halları ilə bağlı şikayətlərin edilməməsi tendensiyası ilə əlaqəlidir. Zorakılıq baş verdiyi təqdirdə qadınların adətən müvafiq qurumlara müraciət etməməsi əsasən zorakılığı sübut edəcək yetərli dəlillərin olmaması, dövlət qurumlarına inamın az olması və ya zərərçəkən şəxsin günahlandırılmasına yönəlik münasibət və davranışların çox yayğın olması ilə izah edilə bilər. Digər tərəfdən, məişət zorakılığı ilə bağlı məlumatların toplanması zamanı hüquq mühafizə orqanlarının baş vermiş zorakılıq hallarının həm məişət zorakılığı, həm də “ailə münaqişəsi” adı altında təsnifləşdirməsidir. Qeyd olunan səbəblər nəticəsində qadınlara qarşı zorakılığın həqiqi miqyası olduğundan daha kiçik görünür.

Son illərin rəsmi rəqəmlərinə görə, ölkədə məişət zorakılığının artdığı müşahidə olunur. Belə ki, 2016-cı ildə 897 məişət zorakılığı halı qeydə alınmışdır. Bu faktlar üzrə 791 nəfər qadın olmaqla, 4 azyaşlı uşaq zərər çəkmişdir. 29 qadın isə qətl edilmişdir.

Daxili İşlər Nazirliyinin məlumatlarına əsasən, 2017-ci ildə qadınlara qarşı 2,145 cinayət halı baş vermiş və bunlardan 39-u qadınların ölümü ilə nəticələnmişdir. Ailədaxili mübahisələr və qısqanclıq zəminində baş vermiş cinayətlərin sayı isə 954 olmuşdur. Qadınlara qarşı törədilmiş cinayətlər arasında 65-i qəsdən adam öldürmə, 178-i cinsi zorakılıq, 191-i özünü öldürmə halına çatdırma, 1,157-i yüngül bədən xəsarətləri, 165-i qəsdən sağlamlığa zərər vurma, 9-u işgəncə, 22-si isə adam oğurluğu (qız qaçırtma) halları olmuşdur. Bundan başqa, 2,993 nəfər qanunsuz hərəkətlərə görə hüquq məsuliyyətinə cəlb edilmişdir.

[1] Ümumdünya Səhiyyə Təşkilatının Media Mərkəzi. "Qadınlara qarşı zorakılıq: epidemiya nisbətində qlobal sağlamlıq problemi". https://www.who.int/mediacentre/news/releases/2013/violence_against_women_20130620/en/

İnzibati məlumatlardan fərqli olaraq, ev təsərrüfatları əsasında keçirilən sorğu məlumatları rəsmi qurumlar tərəfindən qeydiyyata alınan zorakılıq hallarını deyil, qadınların üzləşdiyi zorakılıq hallarının faktiki yayılma səviyyəsini əks etdirir. Məsələn, Azərbaycanda 2008-ci ildə qadınlara qarşı zorakılıq üzrə aparılmış milli sorğu zamanı müəyyən edilmişdir ki, qadın respondentlərin təxminən dörddə biri(24%) 15 yaşından sonra həm intim partnyor, həm də intim partnyor olmayan şəxslər tərəfindən törədilən zorakılığın müxtəlif formalarına məruz qalmışdır. Bununla yanaşı digər bir sorğunun nəticələrinə əsasən təxminən hər üç kişidən biri (32,5%) fiziki zorakılıq hallarını törətdiyini və qadınların 32,1%-i bu növ zorakılığa məruz qaldığını bildirib.[2]

[2] UNFPA/AQUPDK (2018) "Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar. Kişilərin Gender Bərabərliyinə Münasibətinə dair Tədqiqatın (IMAGES) nəticələri üzrə Hesabat", Bakı, Azərbaycan

# 2-ci fəsil

# Gender əsaslı zərakılıqla mübarizə üzrə hüquqi çərçivə: milli qanunvericilik və beynəlxalq yanaşma

## 2.1. Milli qanunvericilik çərçivəsi:

### *i. “Məişət zorakığının qarşısının alınması haqqında” AR Qanunu (2010)*

Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən sonra ölkədə qadın hüquqlarının müdafiəsi baxımından yeni bir dövrün əsası qoyuldu. 1995-ci ildə BMT-nin “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qalıdırlmasına dair Konvensiya”sı ratifikasiya olunmuş, 2006-cı ildə “Gender bərabərliyinin təminatları haqqında” qanun, 2010-cu ildə isə “Məişət zorakılığının qarşısının alınması haqqında” qanun (bundan sonra MZ Qanunu) qəbul edilmişdir.

Gender əsaslı zorakılığın daha çox yayılmış formalarından olan ailədaxili zorakılıqla mübarizə üzrə əsas hüquqi tənzimləyici normaları özündə əks etdirən MZ Qanunu yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir.

Məişət zorakılığına qarşı mübarizənin hər tərəfli və kompleks şəkildə həyata keçirilməsi, məişət zorakılığının profilaktikasını təmin edilməsi məqsədi ilə ***MZ Qanun aşağıdakı sahələr üzrə tədbirlərin növünü müəyyən edir:***

- ***hüquqi xarakterli*** - məişət zorakılığı hallarının araşdırılması, məişət zorakılığına yol vermiş şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi;
- ***sosial xarakterli*** - zərər çəkmiş şəxslərin sosial müdafiəsi üzrə, o cümlədən müvəqqəti sığınacaqla təmin edilməsi, onlara dövlət hesabına hüquqi və tibbi yardımın göstərilməsi, habelə digər sosial yönümlü tədbirlərin həyata keçirilməsi;
- ***qabaqlayıcı*** - əhali arasında məişət zorakılığının mənfi hüquqi, tibbi və sosial nəticələrinin izah edilməsi, məişət zorakılığının qarşısının alınmasına yönəlmiş digər maarifləndirmə təbbirləri həyata keçirilir.

Qanuna əsasən, məişət zorakılığından zərər çəkmiş şəxslərə hüquqi və tibbi yardım dövlət hesabına təmin edilməlidir.

*ii. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (2015)*

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə 29 iyun 2012-ci il tarixində edilmiş dəyişikliklərə əsasən Cinayət Məcəlləsinin "Döymə" adlanan 132-ci maddəsi ləğv edilmiş və bu əməl inzibati xəta kimi müəyyən edilmişdir.

Hazırda **döymə (döymə və ya sair zorakı hərəkətlərlə qəsdən fiziki ağrı yetirmə) əməli törədən şəxslər İnzibati Xətalar Məcəlləsinin (İXM) 157-ci maddəsi ilə inzibati-hüquqi məsuliyyətə cəlb edilir.** Bu əməllərə görə cəza kimi - üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, iki ayadək müddətə inzibati həbs tətbiq olunur. Maddənin qeyd hissəsində isə göstərilir ki, bu maddədə nəzərdə tutulmuş əməl sağlamlığa ağır, az ağır və ya yüngül zərər vurmaqla törədildikdə, Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olur.

**İXM-nin 158-ci maddəsi– məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulmasına görə** aşağıdakı üç növ inzibati xəta əməlləri əlavə edilmişdir:

- ***İqtisadi zorakılıq*** – məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə, yəni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına və ya ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlərə görə – yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.

- ***Psixoloji zorakılıq*** – məişət zəminində psixi zorakılığa, yəni şəxs tərəfindən digər şəxsə qəsdən psixi təzyiq göstərilməsinə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərə görə – üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.

- ***Akkreditasiya qaydalarının pozulması*** – məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyadan keçmədən fəaliyyət göstərməsinə görə – otuz beş manatdan əlli manatadək məbləğdə cərimə edilir (baxmayaraq ki, bu əməl sağlamlıq əleyhinə olan inzibati xətalara aid edilmişdir, normanın məzmunundan göründüyü kimi, bu, əslində idarəçilik qaydası əleyhinə olan xətadır və Hhhhhazırki kurikulumun əhatə dairəsinə düşmür).

Qeyd olunan maddələrdə inzibati tənbeh tədbirləri kimi cərimələr nəzərdə tutulub. Cərimələrin tətbiqi sonradan zorakılıq qurbanı olan şəxslərin də maddi durumunun pisləşməsi, habelə zorakılıq halının davam etdirilməsi ilə nəticələnə bilər. Bu hallar isə zərər çəkmiş şəxsləri müvafiq orqanlara şikayət etməkdən çəkindirən faktorlar sırasındadır. Məhz bu səbəbdən zərər çəkmiş şəxsin təhlükəzliyinin təmin edilməsi tədbirləri ilə yanaşı, zorakılıq törədən şəxslərə qarşı cərimələrin tətbiqinin səmərəliliyi məsələsinin nəzərdən keçirilməsi çox önəmlidir.

İXM döymə (157-ci maddə) və məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulması (158-ci maddə) ilə bağlı inzibati xəta işlərində zərər çəkmiş şəxslə barışmaqla məsuliyyətdən azad etməni (39.1-ci maddə) və inzibati xətalara dair icraatın başlanılmamasını və başlanılmış icraata xitam verilməsini (53.0.9-ci maddə) nəzərdə tutur.

***iii. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (1999)***

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində qadınlara qarşı zorakılıq və məişət zorakılığının planlaşdırılması və törədilməsi ilə bağlı xüsusi maddə olmasa da, Məcəllənin ümumi maddələri bu qəbildən olan kriminal və ictimai təhlükəli əməllər və bu əməllərin törədilməsinə görə cəzalar müəyyən edilir.

Həmin maddələr aşağıdakılardır: Qəsdən adam öldürmə (maddə 120); Qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində qəsdən adam öldürmə (maddə 122); Özünü öldürmə həddinə çatdırma (maddə 125); Qəsdən sağlamlığa ağır zərər vurma (maddə 126); Qəsdən sağlamlığa az ağır zərər vurma (maddə 127); Qəsdən sağlamlığa yüngül zərər vurma (maddə 128); Qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində qəsdən sağlamlığa ağır və ya az ağır zərər vurma (maddə 129); Ehtiyatsızlıqdan sağlamlığa az ağır və ya ağır zərər vurma (maddə 131); Əzab vermə (maddə 133); Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə (maddə 134); Adam oğurluğu (qız qaçırma, maddə 144); İnsan alveri (maddə 144-1); Qanunsuz azadlıqdan məhrum etmə (maddə 145); Zorlama (maddə 149); Seksual xarakterli zorakılıq hərəkətləri (maddə 150); Seksual xarakterli hərəkətlərə məcbur etmə (maddə 151); On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə (maddə 152); Əxlaqsız hərəkətlər (maddə 153); Yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız əməllərə cəlb etmə (maddə 171); Qadını nikaha daxil olmağa məcbur etmə (maddə 176-1); Fahişəliyə cəlb etmə (maddə 243).

Cinayət Məcəlləsinin 125-ci maddəsində (Özünü öldürmə həddinə çatdırma) göstərilən "Təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, onun ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma" müddəasını məişət zorakılığının forması kimi psixoloji zorakılıq hallarında da tətbiq etmək mümkündür. Amma bu, yalnız qurbanın özünə qəsd etmiş olduğu halda ola bilər.

Cəmiyyətdən fərqli olaraq, ailə daxilində özünü öldürmə həddinə çatdırma halının olmasını sübut etmək elə də asan deyil və belə hallar adətən intihar halları kimi qeydə alınır. Cinayət təqibi praktikası göstərir ki, cinayət təqibini həyata keçirən orqanlar (vəzifəli şəxslər) ictimai yerlərdə baş verən bu tipli hallara (özünə qəsd) zəmin yaradan halları qiymətləndirir və bunu ictimai təhlükəli əməl hesab edirlər. Lakin eyni hal ailə daxilində baş verdikdə cinayət təqibini həyata keçirən orqanlar (vəzifəli şəxslər) tərəfindən oxşar yanaşma tətbiq edilmir.

Məişət zorakılığının fiziki və psixoloji formaları ilə mübarizə məqsədi ilə Cinayət Məcəlləsinin 133-cü maddəsini (Əzab vermə) də tətbiq etmək mümkündür. Belə ki, 133-cü maddənin əhatə etdiyi "mütəmadi olaraq döyməklə və ya sair zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi iztirablar vermə" əslində qurbana qarşı davamlı əsaslarda törədilən məişət zorakılığının fiziki və psixoloji formalarına aiddir.

İXM-də olduğu kimi Cinayət Məcəlləsində də zərərçəkmiş şəxslə barışıq olduğu təqdirdə cinayət məsuliyyətindən azad etmə nəzərdə tutulmuşdur. Belə ki, Cinayət Məcəlləsinin 73.1-ci maddəsinə əsasən, *[Böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri aradan qaldırdıqda cinayət məsuliyyətindən azad edilə bilər]*. Həmin Məcəllənin 73.2-ci maddəsində cinayət əməlini törədən şəxsin "barışıq" yolu ilə cinayət məsuliyyətindən azad edildiyi cinayət əməlləri qeyd edilmişdir ki, buraya da daha çox şəxsiyyət əleyhinə olan cinayətlər daxildir (Məsələn, qəsdən sağlamlığa az ağır və yüngül zərər vurma, əzab vermə, öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə, şəxsi həyatın toxunulmazlığını pozma və s). Məişət zorakılığı zəminində baş verən zorakılıq halları əksər hallarda yuxarıda qeyd edilən şəxsiyyət əleyhinə olan cinayət əməlləri ilə üst-üstə düşür və təcrübədə belə cinayətləri törədən şəxslərin "barışıq" yolu ilə cinayət məsuliyyətindən azad edilməsi müşahidə olunur.

## “Barışıq” təcrübəsinə beynəlxalq yanaşma

Beynəlxaq təcrübəyə əsasən, məişət zorakılığından zərər çəkmiş şəxsin zorakılığı törətmiş şəxslə barışdırılması təcrübəsi əksər hallarda mənfi nəticələr yaradır və qurbanın həyatı və sağlamlığı üçün ciddi təhlükələr doğurur. Buna görə də, tərəflərin barışdırılması təcrübəsi beynəlxalq hüquq və standartlara görə  qəbuledilməzdir.

Azərbaycanda da “barışıq” təcrübəsindən həm inzibati xəta, həm də cinayət işlərinin araşdırılması və müvafiq qanunvercilik normalarının tətbiqi prosesində çox geniş istifadə olunmaqdadır. Bu məsələ barəsində BMT-nin Qadınlara qarşı zorakılıq üzrə Xüsusi Məruzəçisi Rəşidə Manju özünün Azərbaycan üzrə missiyasına dair Yekun Hesabtında [3] bir daha narahatlığını  ifadə etmiş və bildirmişdir ki: “barışıq” təcrübəsinin tətbiqi zərərçəkmişlərin mənafelərinə xidmət etmir və əksər hallarda onların fərdi insan hüquqları “qurban edilir”.

Bunu nəzərə alaraq, zərər çəkmiş şəxslə barışıq baş tutduğu təqdirdə icraata xitam verilməsi və zorakılıq törədən şəxsin məsuliyyətdən azad edilməsi ilə bağlı qanunvericiliyin müvafiq müddəalarını tətbiq etməkdən əvvəl, hüquq mühafizə orqanları tərəfindən işin hərtərəfli şəkildə araşdırılması (həmçinin, barışıq qərarının verilməsinə təsir edən halları da) və baş verə biləcək zorakılıq risklərinin hərtərəfli qiymətləndirilməsi olduqca əhəmiyyətlidir.

Ümumiyyətlə qeyd edilən normaların da səmərəlilik baxımından yenidən nəzərdən keçirilməsinə ehtiyac var.



[3] Rashida Manjoo, BMT-nin Qadınlara qarşı zorakılıq üzrə Xüsusi Məruzəçisinin Azərbaycana missiyasının yekununa dair Hesabatı. 2014.
https://www.refworld.org/cgi-bin/texis/vtx/rwmain/opendocpdf.pdf?reldoc=y&docid=53b51e8a1a2

## 2.2. Beynəlxaq hüquqi çərçivə:

### i. BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyası

Məlum olduğu kimi, 20-ci əsrin ortalarından başlayaraq qadınların hüquqlarının müdafiəsi məqsədi ilə beynəlxalq, regional və milli səviyyədə bir sıra hüquqi islahatlar aparılmışdır. Bunun bariz nümunələrdən biri də BMT-nin Baş Assambleyasının 34/180 saylı 18 dekabr 1979-cu il tarixli qətnaməsi ilə qəbul edilmiş, 3 sentyabr 1981-ci il tarixində 20 dövlətin ratifikasiyasından sonra qüvvəyə minmiş, qadın hüquqlarının müdafiəsi üzrə əsas beynəlxalq sənəd hesab olunan "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya (bundan sonra Konvensiya) olmuşdur.

Hazırda 189 ölkə tərəfindən ratifikasiya olunmuş Konvensiya Uşaq Hüquqları Konvensiyasından sonra dünyada ən çox ratifikasiya olunmuş beynəlxalq müqavilə hesab olunur.

Azərbaycan Respublikası 1995-ci il 10 iyul tarixində Konvensiyanı ratifikasiya edərək qadın və qızların hüquqlarının təminatına yönəlmiş bir sıra hüquqi-normativ aktlar qəbul etmişdir. Belə ki, 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", 2010-cu ildə isə "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunlar qəbul edilmiş, 2011-ci ilə Ailə Məcəlləsinə dəyişiklik edilərək minimum nikah yaşı həddi qızlar və oğlanlar üçün eyniləşdirilərək 18 yaş kimi müəyyən edilmişdir. Bununla da, məişət zorakılığından zərər çəkmiş şəxslərin, o cümlədən, məişət zorakılığı, gender və gender bərabərliyi, cinsi mənsubiyyətə görə ayrı-seçkilik, seksual qısnama və bu sahə üzrə digər terminlərin hüquqi anlayışları qanunla müəyyən edilmişdir.

Konvensiya ailə vəziyyəti, siyasi, iqtisadi, sosial, mədəni vəziyyəti və baxışlarından aslı olmayaraq kişi və qadınların bərabər hüquqlara malik olmalarını təsbit etməklə yanaşı, onun iştirakçısı olan dövlətlərin hüquqi, siyasi və proqram xarakterli tədbirlər həyata keçirilməsi və qadınlara münasibətdə mövcud olan ayrı-seçkilik hallarının aradan qaldırılması öhdəliyini müəyyən edir. Bu öhdəliklər həyatın bütün sferalarını, o cümlədən nikah, ailə münasibətləri, həmçinin istənilən şəxs, təşkilat və təsisat tərəfindən qadınlara qarşı hər hansı ayrı-seçkiliklə mübarizə üzrə müvafiq tədbirləri əhatə edir.

Konvensiya preambula, 30 maddə və 6 hissədən ibarət olmaqla, qadınlara münasibətdə ayrı-seçkiliyin ləğv edilməsi, qadınlar və kişilər arasında bərabərliyin təmin edilməsini BMT-nin əsas prinsiplərindən biri kimi qeyd edir və qadınların vəziyyətinin yaxşılaşdırılması problemini müasir dövrün ən qlobal problemləri sırasına aid edir.

**Konvensiyanın əhatə etdiyi məsələlər aşağıdakı kimi qruplaşdırılmışdır:**

- I hissə (1-6 maddələr): müvafiq olaraq qadınlara qarşı diskriminasiya anlayışını, qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üçün tədbirlər siyasətini, əsas insan hüquqları və fundamental azadlıqların təminatını, xüsusi tədbirlərin, həmçinin stereotiplərin və mövhümatların yox edilməsi üçün tədbirlərin görülməsini, qadın alveri və fahişəliyin qarşısının alınmasına dair öhdəlikləri müəyyən edir.
- II hissə (7-9 maddələr): qadınların şəxsi həyat və ictimai hüquqlarını, siyasi iştirakçılıq və təmsilçilik, vətəndaşlıq məsələlərini ehtiva edir.
- III hissə (10-14-cü maddələr): təhsil, məşğulluq, sağlamlıq, iqtisadi və sosial imtiyazlar, kənd qadınlarının hüquqlarını əhatə edir.
- IV hissə (15- 16-ci maddələr): qadınların kişilərlə birgə qanun qarşısında bərabər olması və onların nikah və ailə həyatı ilə baglı məsələləri tənzimləyir.
- V hissə (17-22-ci maddələr): qadınlara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi, milli hesabatlar, prosedur qaydaları, Komitənin iclasları və onun hesabatları və xüsusi agentliklərin rolundan bəhs edir.
- Sonuncu VI hissə (23-30-cu maddələr) Konvensiyanın icra edilməsi və tərəflərin ratifikasiyası qaydalarını müəyyən edir.

**Konvensiya qadınlara qarşı zorakılığı açıq şəkildə qadağan etmir. Buna baxmayaraq, qadınlara qarşı zorakılıq məsələləri qadınlara qarşı ayrı-seçkiliyin bütün formaları ilə əhatə olunduğu üçün Komitə tərəfindən qəbul olunmuş Ümumi Tövsiyələrlə tənzimlənir.**

**Hazırda Komitənin qadınlara qarşı zorakılıq və gender əsaslı zorakılıqla bağlı iki Ümumi Tövsiyəsi mövcuddur. Bu CEDAW Komitəsinin 19 saylı Ümumi Tövsiyəsi [4] (Qadınlara qarşı zorakılıq) və 35 saylı Ümumi Tövsiyəsidir [5] (Qadınlara qarşı gender əsaslı zorakılıq, 19 saylı Ümumi Tövsiyənin yenilənmiş variantı).**

[4] UN Committee on the Elimination of Discrimination Against Women (CEDAW), CEDAW General Recommendation No. 19: Violence against women (1992), available at: https://www.refworld.org/docid/52d920c54.html

[5] CEDAW General Recommendation No. 35: Gender-based violence against women, updating general recommendation No. 19 (2017), available at:
https://tbinternet.ohchr.org/Treaties/CEDAW/Shared%20Documents/1_Global/CEDAW_C_GC_35_8267_E.pdf

***Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi: fərdi şikayətlərin araşdırılması proseduru***

Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə Konvensiyasının icrasına nəzarəti həyata keçirir. Komitə yüksək mənəvi keyfiyyətlərə malik olan, iştirakçı-dövlətlərin vətəndaşları sırasından seçilən və Konvensiyanın əhatə etdiyi məsələlər üzrə tanınmış 23 ekspertdən ibarətdir. Ekspertlər 4 il müddətinə seçilir.

Konvensiyanın Fakultativ Protokolu (Optional Protocol to the Convention on the Elimination of All Forms of Discrimination against Women) ayrıca beynəlxalq müqavilədir və bu baxımdan o dövlətlər tərəfindən ratifikasiya olunmalıdır. İştirakçı-Dövlətlər Fakultativ Protokolun ratifikasiyası ilə Komitənin "müraciətlərin qəbulu və baxılmasına" dair səlahiyyətlərini tanımış olur.

Azərbaycan Respublikası Konvensiyanın Fakultativ Protokolunu 06 iyun 2000-ci il tarixində imzalamış və 01 iyun 2001-ci ildə ratifikasiya etmişdir.

Müraciətlərlə bağlı əsas tələblər aşağıdakılardan ibarətdir: müraciətlər anonim olmamalı, habelə, yalnız Konvensiyada göstərilən hüquqların pozulmasının qurbanı olduğunu iddia edən, İştirakçı-Dövlətin yurisdiksiyası daxilində olan şəxslər, qruplar və yaxud onların adından çıxış edən şəxslər tərəfindən göndərilə bilər. Müəyyən şəxslər və ya qrupların adından müraciət edən tərəfin təmsil etdiyi şəxslər və ya qrupların razılığının tələb olunmadığını sübuta yetirə bildiyi hallar istisna olmaqla, müraciət zamanı həmin şəxslər və ya qrupların razılığının olması mütləqdir.

Ölkədaxili müdafiə vasitələrindən istifadənin əsassız şəkildə gecikdirildiyi və ya arzu olunan nəticəni verməyəcəyi hallar istisna olmaqla, Komitə müraciət edən şəxs tərəfindən ölkədaxili mümkün bütün hüquq müdafiə vasitələrinin tükəndiyinə əmin olduqdan sonra həmin müraciətə baxır.

Komitə aşağıdakı hallarda qəbuledilməzliklə (inadmissibility) bağlı qərar qəbul edir:

- eyni məsələ artıq Komitə tərəfindən baxılmış və yaxud beynəlxalq icraatın və ya tənzimləmənin digər bir proseduruna uyğun olaraq baxılmış və ya baxılmaqdadır;
- müraciət bu Konvensiyanın müddəalarına uyğun deyil;
- müraciət açıq-aşkar əsassız və ya kifayət qədər əsaslandırılmamışdır;
- müraciət zamanı müraciət etmək hüququndan sui-istifadə halına yol verilib;
- müraciətdə qeyd olunan faktlar Fakultativ Protokolun müvafiq iştirakçı dövlət üçün qüvvəyə minməmişdən əvvəlki dövrdə baş verdikdə(ratifikasiya olunan tarixdən sonra davam edən hallar istisna olmaqla).

Komitə baş verməsi ehtimalı olan hüquq pozuntusunun potensial qurbanına və ya zərərçəkmişinə dəyə biləcək və düzəlməsi mümkün olmayan zərərin qarşısını almaq məqsədilə təcili baxılması üçün müvafiq İştirakçı-Dövlətə zəruri müvəqqəti tədbirlərin görülməsi barədə sorğu göndərə bilər. Bu Komitənin diskresion səlahiyyəti olmaqla, müraciətin qəbuledilənliyi və ya müraciətin mahiyyəti üzrə qərarın qəbul edilməsinə dəlalət etmir.

Komitə daxil olmuş müraciətləri İştirakçı-Dövlətə göndərir, sonuncu isə 6 ay ərzində həmin məsələ ilə bağlı öz yazılı izahatlarını Komitəyə təqdim edir.

Müraciəti və İştirakçı-Dövlətin izahatlarını araşdırdıqdan sonra Komitə həmin məsələ ilə bağlı fikirlərini tövsiyələrlə birlikdə (əgər varsa) müvafiq tərəflərə ötürür.

İştirakçı-Dövlət Komitənin fikir və tövsiyələrini lazımi qaydada nəzərdən keçirir və altı ay ərzində Komitənin rəy və tövsiyələri nəzərə alınmaqla görülən tədbirlər barədə məlumat daxil olmaqla yazılı cavab təqdim edir.

Konvensiyanın 21-ci maddəsinə əsasən Komitə BMT-nin İqtisadi və Sosial Şurası vasitəsilə hər il BMT-nin Baş Assambleyasına öz fəaliyyəti barədə hesabat verir və iştirakçı dövlətlərdən alınan hesabatlar və məlumatların araşdırılmasına əsaslanaraq təklif və ümumi tövsiyələr (General Recommendations) verə bilər. Mövcüd olduğu təqdirdə bu cür təkliflər və ümumi tövsiyələr iştirakçı dövlətlərin rəyləri ilə birlikdə Komitənin hesabatına daxil edilir.

### *ii. Avropa İnsan Hüquqları Konvensiyası*

Avropa Şurası insan haqları, demokratiya və digər sahələrin inkişafına cavabdeh olan beynəlxalq orqandır. Avropa Şurasının insan hüquqlarının müdafiəsinə yönəlmiş əsas hüquqi aləti İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiyasıdır (AİHK). AİHK 1950-ci ilin 4 noyabrda qəbul edilmiş və 1953-cü il sentyabrın 3-də Avropa Şurasına üzv olan 8 dövlət tərəfindən ratifikasiya olunduqdan sonra qüvvəyə minmişdir.

AİHK hazırda Avropa Şurasının 47 üzv dövlətləri tərəfindən imzalanmışdır. Azərbaycan Respublikası AİHK-a 2001-ci ildən qoşulmuşdur.

AİHK strukturu:

AİHK preambula, xüsusi 1-ci maddə, 3 bölmə (cəmi 59 maddə olmaqla) və ona əlavə edilmiş protokollardan ibarətdir.

**AİHMnın təcrübəsinə əsasən, qadınlara qarşı zorakılıq və məişət zorakılığı, o cümlədən gender əsaslı ayrı-seçkilik sahəsində pozuntu hesab edilən AİHK maddələri aşağıdakı kimidir:**

- **Yaşamaq hüququ (maddə 2) –** çəkən şəxsin və ya onun yaxının 2-ci maddənin tələblərinə uyğun olaraq dövlət tərəfindən müdafiə olunmamasına görə məişət zəminində baş verən zorakılıq halları ilə bağlı yaranan istənilən təhlükə nəticəsində (məsələn, şikayətlərin operativ araşdırılmaması, təqsirkarların məsuliyyətə cəlb edilməməsi və ya cəza tədbirlərinin, yaxud müvafiq inzibati və cinayət qanunverciliyinin zorakılq əməllərinə tətbiqindəki effektivsizliyi, qurbanın müdafiə və təhlükəsizliyinin təmin olunmaması, və s.) həyatdan məhrum edilməsi

- **İşgəncənin qadağan olunması (maddə 3**) – fiziki, cinsi, iqtisadi və psixoloji zorakılıqdan şifahi təhqirə qədər müxtəlif formalarda təzahür edə bilən məişət zorakılığı hallarından 3-cü maddənin tələblərinə əsasən effektiv şəkildə müdafiə olunmamaqla (eynilə yuxarıda göstərilən müdafiə prosessual tədbirlərinin görülməməsi və ya lazımınca görülməməsi) işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara məruz qalma.

- **Köləliyin və məcburi əməyin qadağan olunması (maddə 4)** – 4-cü maddənin tələblərinə əsasən qadınların insan alveri və fahişəlik məqsədi ilə istismardan effektiv şəkildə müdafiə olunmadığı hallarda tətbiq edilir, hətta işdə beynəlxalq (xarici) element (istismar məqsədilə xaricə aparma) olmasa da tətbiq edilə bilər.

- **Ədalətli məhkəmə araşdırması hüququ (maddə 6)** – bu maddə əsasən mülki hüquqların ədalətli məhkəmələr tərəfindən araşdırılmaması, o cümlədən zorakılığa görə kompensasiya verilməməsi (D.M.D. Rumıniya qarşı iş – 2017), zorakılıq törədən şəxsin mənzildən çıxarılmaması və ağlabatan müddət ərzində ədalətli məhkəmə araşdırması hüququnun pozulması hallarında tətbiq edilir.

- **Şəxsi həyata və ailə həyatına hörmət hüququ (maddə 8)** – məişət zorakılığı hallarına 8-ci maddənin tətbiqi əksər hallarda zərər çəkmiş şəxsin keçmiş əri və ya intim partnyoru və yaxud digər ailə üzvləri (ata, qardaş) tərəfindən şəxsi həyatı və ailə həyatının toxunulmazlığına yönəlmiş fiziki və psixoloji zorakılıq əməlləri, o cümlədən məcburetmə, məhdudiyyətlər və digər müdaxilələrdən müdafiə edilməməsi ilə bağlıdır. 8-ci maddənin tələblərinə əsasən, şəxsin şəxsi həyat və ailə həyatının müdafiəsi ilə bağlı tədbirlərin vaxtında və effektiv şəkildə həyata keçirilməsi və şəxsin fiziki və psixoloji toxunulmazlığının qorunması dövlətin pozitiv öhdəliyini təşkil edir. Buraya eyni zamanda, şəxsi yazışmalar və ailə sirrinin üçüncü şəxslərdən qorunması və kiberhücumların (məsələn: kiberbulinq) bütün formalarından müdafiə də daxildir.

- **Səmərəli hüquqi müdafiə vasitələri hüququ (maddə 13)** – bu maddə gender əsaslı zorakılıqla bağlı işlərə aşağıdakı hallarda tətbiq edilir: dövlət tərəfindən şəxsin fiziki və psixoloji toxunulmazlığının qoruması, eyni zamanda şəxsi mülki və digər hüquqlarının müdafiəsi sahəsində səmərəli hüquqi müdafiə vasitələrinin yaradılmaması, o cümlədən mövcud müdafiə mexanizmlərindəki sistemli və ya struktur problemlərin aradan qaldırılmadığı hallarda tətbiq edilir. Məsələn, AR-nın "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunu və Mülki Prosessual Məcəlləsinə əsasən, zorakılığı törədən şəxsin əvvəllər belə zorakılıq törətməsinə dair verilmiş xəbərdarlığa və ya qısamüddətli mühafizə orderinin tələblərinə əməl etmədiyi təqdirdə məişət zorakılığı qurbanının uzunmüddətli mühafizə orderi alması üçün məhkəməyə müraciət etmək hüququ yaranır. Qanunvercilikdə zorakılıqdan zərər çəkmiş şəxsin müdafiə üçün birbaşa məhkəməyə müraciət etmək imkanını məhdudlaşdıran belə bir şərtin olması, şəxsin Konvensiyanın 13-cü maddəsi ilə qorunan səmərəli hüquqi müdafiə vasitələri hüququnu pozmuş olur.

- **Ayrı-seçkiliyin qadağan olunması (maddə 14)** – qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə bağlı işlərə məhkəmə tərəfindən baxılan zaman Konvensiyanın bu maddəsinin məhkəmə qərarlarında ayrıca tətbiqi təcrübəsi yoxdur. 14-cü maddə adətən digər pozuntu hesab edilən əsas maddələrlə (məsələn, 2-ci və ya 3-cü maddələrlə) əlaqəli şəkildə tətbiq edilir. "Opuz Türkiyəyə qarşı" işi üzrə məhkəmədə, ilk dəfə olaraq, qadınlara qarşı zorakılığın bütün formalarına qadınlara qarşı hüquqi və faktiki ayrı seçkilik kontekstində yanaşılmış və Konvensiyanın14-cü, habelə2 və 3-cü maddələrinin birlikdə pozulduğuna dair qərar verilmişdir

AİHM-nın qadınlara qarşı zorakılıq və məişət zorakılığı, o cümlədən gender əsaslı ayrı-seçkilik sahəsində yuxarıda qeyd olunan insan hüquqlarının pozuntusu ilə bağlı çoxsaylı qərarları mövcuddur. Məişət zorakılığının fundamental insan hüquqlarının pozuntusu və cinsi əlamətə əsaslanan, qadınlara qarşı ayrı-seçkiliyin bir forması kimi qiymətləndirən AİHM, "Opuz Türkiyəyə qarşı" işi üzrə qərarında qeyd etmişdir ki,***"...fiziki və psixoloji zorakılıqdan şifahi təhqirə qədər müxtəlif formalarda təzahür edə bilən məişət zorakılığı, bütün üzv dövlətlərə aidiyyatı olan və əksər hallarda şəxsi münasibətlər və ya qapalı çevrələr daxilində baş verdiyindən üzə çıxmayan və yalnız qadınlara şamil edilməyən ümumi bir problemdir. AİHM, kişilərin də məişət zorakılığı qurbanı ola biləcəyini və əslində uşaqların da bilavasitə və ya dolayısı ilə bu hadisələrin qurbanı ola biləcəyini etiraf edir".***

Qeyd edilməlidir ki, məişət zorakılığına məruz qalmış qurbanların müdafiəsi və ədalət mühakiməsinə çıxışın təmin edilməsi üçün AİHM tərəfindən əsas prinsiplər aşağıdakı kimi müəyyən edilmişdir.

**Ayrı-seçkiliyə yol verilməməsi**

**“Opuz Türkiyəyə qarşı” işində Məhkəmə qeyd edir ki**, Konvensiyanın müddəalarının məqsəd və vəzifələrini nəzərdən keçirərkən məhkəmə, araşdırdığı hüquqi məsələyə dair beynəlxalq hüquqdakı yanaşmanı da nəzərə alır (qərarın 184-cü paraqrafı). Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komissiyası cins əsasında baş verən zorakılıqla ayrı-seçkilik arasındakı əlaqəni açıq-aydın təsdiq edərək 2003/45 saylı qətnaməsində vurğulayıb ki, "qadınlara qarşı zorakılığın bütün formaları qadınlara qarşı hüquqi və faktiki ayrı-seçkilik kontekstində və cəmiyyətdə qadınların aşağı statuslu şəxslər hesab edilməsi kontekstində baş verir və qadınların hüquqi müdafiə vasitələri üçün dövlətə müraciət edərkən çox zaman maneələrlə üzləşməsi bu zorakılığı daha da gücləndirir" (188-ci paraqrafı). Yuxarıda qeyd edilən norma və qərarlardan belə nəticə çıxır ki, dövlətin qadınları ailədaxili zorakılıqdan qorumaması onların (qadınların) qanun vasitəsilə bərabər müdafiə hüququnu pozur və dövlətin bunu məqsədli şəkildə edib-etməməsi əhəmiyyət daşımır (191-ci paraqrafı).

**“Eremia və digərləri Moldova Respublikasına qarşı” işində Məhkəmə qeyd edir ki,** “...hakimiyyət orqanlarının zorakılığa məruz qalmış ilk ərizəçiyə qarşı hərəkətləri sadə bir uğursuzluq və ya gecikmə kimi qiymətləndirilmir, əksinə bu cür hal zorakılığa dəfələrlə göz yumulmasını və qadın olan ilk ərizəçiyə ayrı-seçkiliyə əsaslanmış münasibətini əks etdirir. Birləşmiş Millətlər Təşkilatının qadınlara qarşı zorakılıq üzrə Xüsusi Məruzəçisinin aşkarladığı hallar, onların səbəbləri və nəticələri (qərarın 37-ci paraqrafı) hakimiyyətin ancaq Moldovadakı mövcüd olan məişət zorakılığı ilə bağlı problemlərə tam ciddi yanaşmadığını və ayrıseçkiliyə yol verməsini təsdiqləyir.”





## Gender bərabərliyi

"Konstantin Markininin Rusiyaya qarşı" işi üzrə Məhkəmə qeyd etdi ki, "...hazırda gender bərabərliyinin təşviqi Avropa Şurasına üzv olan dövlətlərdə əsas məqsədlərdən birini təşkil edir və cinsə görə fərqli rəftarın Konvensiyaya uyğun hesab edilə bilməsi üçün olduqca əsaslı səbəblər göstərilməlidir. Konkret olaraq, ölkədəki ənənələrə, ümumi baxışlara və ya üstünlük təşkil edən sosial yanaşmalara istinadlar yetərli deyil".

Eyni zamanda Məhkəmə bu iş üzrə qərarında, **gender stereotipləri** və **həmin stereotiplərin** qadınların karyerasına və kişilərin ailə həyatına **zərərli təsirləri** ilə bağlı geniş izah vermiş və belə bir nəticəyə gəlmişdir ki, "... cinsiyyətə əsaslanan stereotiplər, məsələn: uşaqlarla əsasən qadınlar məşğul olmalı və kişilər pul qazanmaq üçün çalışmalıdır, eyni ilə irqi, mənşəyi, dərisinin rəngi və ya cinsi oriyentasiyaya əsaslanan digər stereotiplərdə olduğu kimi sözügedən fərqli rəftarın əsaslandırılması üçün yetərli deyil".



## Hərtərəfli və effektiv araşdırma

Hərtərəfli və effektiv araşdırma prinsipi Konvensiyanın 2-ci və 3-cü maddələri üzrə prosessual öhdəliklərin əsasını təşkil edir. Belə ki, dövlətin müvafiq orqanları və onların vəzifəli şəxslərinin əsas vəzifəsi zorakılıq hallarının aşkar edilməsi və cavabdehlərin cəzalandırılmasına səbəb ola biləcək hərtərəfli və effektiv bir araşdırma aparmaqdan ibarətdir.

“Maslova və Nalbandov Rusiyaya qarşı” işi üzrə qərarında Məhkəmə vurğulayır ki, Konvensiyanın 1-ci maddəsinə əsasən, *dövlətin ümumi vəzifəsi öz yurisdiksiyası daxilində olan hər kəsin Konvensiyada təsbit edilmiş hüquq və azadlıqlarını təmin etməkdir və bu öhdəlik həmçinin təsirli bir rəsmi araşdırmanın aparılmasını tələb edir (qərarın 91-ci paraqrafı). Beləliklə, məsələ hakimiyyət orqanlarının bu iş ilə bağlı səmərəli rəsmi araşdırma aparmaq öhdəliyinə əməl edib-etməməsi ilə əlaqədar yaranır (qərarın 92-ci paraqrafı).* Effektiv araşdırma cavabdeh şəxslərin müəyyənləşdirilməsinə və cəzalandırılmasına səbəb ola biləcək dərəcədə olmalıdır. Effektivliyə dair Məhkəmənin presedent hüququ ilə müəyyən edilmiş minimum standartlar – istintaqın müstəqil, qərəzsiz olması və səlahiyyətli orqanların nümunəvi çalışqanlığı və operativliklə hərəkət etmələri tələblərini də əhatə edir (qərarın 91-ci paraqrafı).



**Ədalət mühakiməsinə çıxış və məhkəmə vasitələrindən istifadə**

İnsan haqları standartlarına uyğun zərər çəkmiş şəxslərin şikayətləri üzrə rəsmi və ya qeyri-rəsmi ədalət mühakiməsi qurumlarının müyəssərliyi (əlçatımlılığı) üçün şəraitin yaradılması və müvafiq həll yollarının tapılması imkanlarının təmin edilməsi, ədalət mühakiməsinin müyəssərliyi və insan hüquqlarının effektiv qorunmasının ana xəttini təşkil edir. Bundan əlavə, insan hüquqlarının pozulmasına görə kompensasiya tələb etmək imkanı olmadan, belə müdafiə vasitələri faydasızdır, hətta xəyalidir.

Qurbanların Konvensiyaya uyğun qaydada məhkəmə vasitələrindən istifadə imkanlarını məhdudlaşdıra biləcək digər maneələr də mövcuddur. Məsələn, hüquqi yardımın olmaması müəyyən hallarda zorakılıq qurbanının təhlükəli vəziyyətinə son qoymaq üçün qanuni yollarla müdafiə imkanlarından istifadəsinə mane ola bilər. Daha geniş perspektivdən baxıldıqda, Məhkəmə, “Airey İrlandiyaya qarşı” işində (1979) müəyyən etmişdir ki, ədalətli məhkəmə vasitələrindən səmərəli istifadə bəzi hallarda qurbanın maliyyə vəsaiti xərcləməsini tələb edə bilər (hüquqi xidmətlər üçün). Mülki işlərə dair hüquqi yardımın o vaxt İrlandiyada olmaması ilə yanaşı, Məhkəmə ərizəçinin Konvensiyanın 6-cı maddəsi ilə qorunan ədalət mühakiməsinin müyəssərliyi ilə bağlı hüququnun pozulduğuna dair qərar vermişdir(qərarın 24-28-ci paraqrafları).

**Məişət zorakılığı ilə bağlı AİHM-nın məşhur qərarları**

***Opuz Türkiyəyə qarşı (2009)***

"Ərizəçi və anası uzun illər ərzində ərizəçinin əri tərəfindən fiziki zorakılığa məruz qalmış və hədəqorxu və təzyiq altında yaşamaq məcburiyyətində qalmışdırlar. Hətta bəzi hallarda onlara həyat üçün təhlükəli olan ağır bədən xəsarətləri də yetirilmişdir. Yalnız bir zorakılıq halı istisna olmaqla, həm ərizəçi, həm də anası ərinin onu və anasını təzyiqlərə məruz qoyduğunu və öldürməklə hədələdiyini öz izahatlarında qeyd etmələrinə baxmayaraq, hər ikisi şikayət ərizələrini geri götürüb və nəticədə zorakılıq törədən şəxsə qarşı heç bir rəsmi ittiham irəli sürülməyib. Daha sonra o, həyat yoldaşına bıçaqla yeddi dəfə zərbə endirib və bu əməlinə görə məhkəmə tərəfindən təxminən 385 avroya bərabər məbləğdə pul cəriməsi kəsilib ki, həmin məbləğin də hissə-hissə ödənilməsinə icazə verilib. Hər iki qadının həyatlarının təhlükədə olması iddiası ilə çoxsaylı şikayət ərizələrinə baxmayaraq, ərizəçinin əri dindirildikdən sonra sərbəst buraxılıb. Nəhayət, hər iki qadın ondan uzaqlaşmağa çalışdıqda, ərizəçinin əri mübahisə zəminində onun şərəf və ləyaqətinin alçaldığını əsas gətirərək öz qaynanasını odlu silahla qətlə yetirib.

O, qətl törətməkdə təqsirli bilinərək ömürlük həbs cəzasına məhkum edilmiş, lakin ərizəçinin həyat yoldaşı tərəfindən ona qarşı təhdidlərə davam etməsi barədə iddialarına baxmayaraq, apellyasiya şikayətinə baxılmasına qədər sərbəst buraxılmışdır. *AİHM qərara alıb ki, ərizəçinin anasının qətlə yetirilməsi ilə bağlı Konvensiyanın 2-ci maddəsinin (Yaşamaq hüququ) və aidiyyati dövlət orqanları tərəfindən iddiaçının həyat və sağlamlığının qorunması üçün zəruri tədbirlərin görülməməsi ilə bağlı Konvensiyanın 3-cü maddəsinin (qeyri-insani və ya alçaldıcı rəftarın qadağan edilməsi) pozulması baş vermişdir. Həmçinin, Türkiyə hökumətinin məişət zorakılığı ilə bağlı əməllərin törədilməsinə görə cəzalandırma və qurbanların qorunması üçün hüquqi mexanizmin yaradılması və tətbiq edilməsini təmin etmədiyi müəyyən edilmişdir.* Dövlət orqanları hətta mövcud müdafiə tədbirlərindən belə istifadə etməyib və münaqişəni "ailədaxili məsələ" hesab edərək, habelə, şikayətlərin hansı səbəblərdən geri götürülməsini araşdırmadan şikayətlər üzrə işlərin icraatına xitam verilməsinə qərar vermişdir. AİHM hesab edir ki, şikayətçilər tərəfindən ərizələrin geri götürülüb-götürülməməsindən asılı olmayaraq, cinayət işlərinin (cinayət icraatı) qaldırılmasına imkan verən hüquqi mexanizm mövcud olmalıdır. *Məhkəmə həmçinin məişət zorakılığı ilə bağlı işdə ilk dəfə olaraq - Konvensiyanın 14-cü maddəsinin (ayrı-seçkiliyin qadağan edilməsi) 2-ci və 3-cü maddələri ilə birlikdə pozulduğu qənaətinə gəlmişdir. Qərarda qeyd edilir ki, məişət zorakılığı hallarına əsasən qadınların məruz qaldığı və Türkiyənin ədalət mühakiməsi sistemində ayrı-seçkilik yaradan passivlik məişət zorakılığı ilə bağlı halların daha çox artmasına zəmin yaradır. Məhz buna görə də ərizəçinin və anasının məruz qaldıqları zorakılıq gender əsaslı və qadınlara qarşı ayrıseçkiliyə səbəb olan hüquq pozuntusu hesab edilə bilər.*

Türkiyə hökumətinin son illərdə həyata keçirdiyi islahatlara baxmayaraq, ərizəçinin işində olduğu kimi, ədalət mühakiməsi (məhkəmə) sisteminin ümumi passivliyi və nəticə etibarilə təcavüzkarların cəzasızlıq mühitindən yararlanması, hakimiyyət orqanları tərəfindən məişət zorakılığına qarşı görülən mübarizə tədbirlərinin yetərsiz olduğunu göstərir.

***Kontrová Slovakiyaya qarşı (2006)***

“2 noyabr 2002-ci il tarixində ərizəçi (iddiaçı) əri tərəfindən zorakılığa məruz qaldığına və elektrik kabeli ilə döyüldüyünə görə cinayət işinin qaldırılması üçün şikayət etmişdir. İddiaçı daha sonra ərinin müşayiəti ilə cinayət işi ilə bağlı şikayət ərizəsini geri götürməyə çalışmışdır. Nəticə etibarı ilə o, öz şikayət ərizəsini dəyişdirərək ərinin ona qarşı törətdiyi hərəkətlərini hər hansı bir müdaxiləni tələb etməyən xırda qanun pozuntusu kimi dəyərləndirdi. 31 dekabr 2002-ci ildə ərizəçinin əri 1997-ci il təvəllüdlü qızını və 2001-ci il təvəllüdlü oğlunu odlu silahla qətlə yetirmişdir. AİHM-nə şikayət edən ərizəçi ərinin təhqiredici və təhdidedici davranışından məlumatlı olan Slovakiya polisinin onun uşaqlarının həyatlarını qorumaq üçün lazımi tədbirləri görmədiyini iddia etmişdir. Ərizəçi, həmçinin şikayətində mənəvi ziyana görə təzminat iddiasında olmadığını da bildirmişdir. AİHM sözügedən hökumət orqanlarının ərizəçinin uşaqlarının həyatlarının qoruması üçün zəruri addımları atmaması ilə bağlı Konvensiyanın 2-ci maddəsinin (yaşamaq hüququ) pozulması faktını müəyyən etmişdir. AİHM qərarında qeyd etmişdir ki, 2002-ci ilin noyabr ayında cinayət barədə verilmiş şikayət ərizəsi və 2002-ci il dekabr ayında polisə edilmiş telefon zəngləri ərizəçinin ailəsindəki vəziyyət barədə yerli polisin məlumatlı olduğunu nümayiş etdirir. Buna cavab olaraq, qüvvədə olan qanuna əsasən, polis aşağıdakı zəruri tədbirləri görməyə borclu idi: şikayətçinin cinayət barədə müraciətini qeydə almaq; şikayətçinin əri barədə təxirəsalınmaz zəruri istintaq və cinayət-prosessual tədbirləri həyata keçirmək; təcili vəziyyət ilə bağlı çağırışların müvafiq qaydada qeydə almaq və növbətçi hissədə növbəni təvhil alan polis həmkarlarını vəziyyət barədə məlumatlandırmaq; və şikayətçinin ərinin odlu silaha sahib olması və bu silahdan istifadə etməklə hədələmə iddiası ilə bağlı zəruri tədbirləri görmək. Buna baxmayaraq, bu işdə iştirak etmiş polis əməkdaşlarından biri törədilmiş zorakılıq hərəkətinin cinayət tərkibi olmayan və hər hansı bir tədbirin görülməsini tələb etməyən xırda qanun pozuntusu kimi xarakterizə olunması üçün hətta şikayətçiyə və onun ərinə 2002-ci ilin noyabrında baş vermiş cinayət barədə iddia ərizəsinin dəyişdirilməsində köməklik göstərmişdir. Nəticədə, polisin vəzifə borclarının lazımınca yerinə yetirməməsi ucbatından ərizəçinin uşaqlarının həyatlarının itirilməsi faktı yerli məhkəmələr tərəfindən müəyyən edilmiş və bu Slovakiya hökuməti tərəfindən etiraf edilmişdir. Əlavə olaraq, məhkəmə Konvensiyanın 13-cü Maddəsinin pozulduğunu müəyyən etmişdir (effektiv hüquqi müdafiənin təmin edilməsi), belə ki, dəymiş mənəvi zərərə görə təzminatın alınması üçün ərizəçi məhkəməyə müraciət etmə imkanına malik olmalı idi, lakin bu cür hüquqi müdafiə vasitəsi şikayətçi üçün təmin edilməmişdir.

***Kalucza Macarıstana qarşı (2012)***

Ərizəçi öz iradəsinə zidd olaraq mənzilini vətəndaş nikahında olduğu və ona qarşı zorakı davranış nümayiş etdirən əri ilə bölüşmək məcburiyyətində qalmış, və sözügedən mənzil üzərində mülkiyyət hüququ ilə bağlı çoxsaylı mülki mübahisələrə baxılmışdır. Ərizəçi, xüsusilə də onun öz evində mütəmadi olaraq fiziki və psixoloji zorakılıqdan müdafiə edilməsi məqsədilə Macarıstanın hakimiyyət orqanlarının tədbir görmədiyini iddia etmişdir. *AİHM, iş üzrə yekun qərarında Macarıstan dövlət orqanlarının Konvensiyanın 8-ci maddəsinin (şəxsi və ailə həyatına hörmət hüququ) tələbləri üzrə pozitiv öhdəliklərin yerinə yetirməməsi barədə qərar qəbul etmişdir. AİHM, həmçinin qeyd etmişdir ki, ərizəçi ərinə qarşı fiziki zorakılıq ittihamları üzrə cinayət məsuliyyətinə cəlb olunma barədə dövlət qurumlarına şikayətlər etmiş, o cümlədən ərinə qarşı məhdudlaşdırıcı qərarların çıxarılması məqsədilə dəfələrlə müraciətlər etmiş, onun evdən çıxarılmasını mülki icraat müstəvisinə çıxartmışdır. Lakin bununla belə, ərizəçinin zorakılıqdan effektiv qorunması üçün aidiyyati qurumlar tərəfindən həyata keçirilən tədbirlər AİHM tərəfindən qeyri-qənaətbəxş hesab olunmuşdur.*

### iii. Avropa Şurasının Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Konvensiyası (İstanbul Konvensiyası)

Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Konvensiyası (İstanbul Konvensiyası kimi tanınan sənəd) bu mövzulara dair yeganə beynəlxalq sənəddir. Konvensiya Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən 7 aprel 2011-ci il tarixində qəbul olunmuşdur. 22 aprel 2014-cü ildə Andorra tərəfindən edilən onuncu ratifikasiyadan sonra Konvensiya 1 avqust 2014-cü ildə qüvvəyə minmişdir. Hazırda İstanbul Konvensiyası 46 ölkə və Avropa İttifaqı tərəfindən imzalanmışdır. 12 mart 2012-ci il tarixində ilk olaraq Türkiyə Respublikası tərəfindən, daha sonra isə 33 ölkə tərəfindən ratifikasiya edilib, Rusiya və Azərbaycan hələlik konvensiyaya qoşulmayıb.

İstanbul Konvensiyası Avropada qadınlara qarşı zorakılıq və məişət zorakılığı sahəsində hüquqi öhdəlik yaradan ilk sənəd, habelə miqyasına görə insan hüquqlarının bu ciddi pozuntusu ilə mübarizə sahəsində ən geniş əhatə dairəsinə malik beynəlxalq sazişdir.

İstanbul Konvensiyasına görə "qadınlara qarşı zorakılıq" insan hüquqlarının pozulması və qadınlara münasibətdə hər hansı bir ayrı-seçkilik halı kimi təsvir olunub. Bununla yanaşı, sazişin 5-ci maddəsində dövlətlər üçün öhdəlik müəyyən edilərək, qeyd edilir ki, **"Tərəflər qadınlara qarşı hər hansı zorakılıq əməlini törətməkdən çəkinməli və dövlət orqanlarının, vəzifəli şəxslərin, əməkdaşların, dövlət qurumlarının və dövlətin adından çıxış edən digər şəxslərin bu öhdəliyə uyğun hərəkət etmələrini təmin edirlər. Tərəflər dövlətə aid olmayan şəxslərin törətdiyi və bu Konvensiyanın əhatə etdiyi zorakılıq əməllərinin qarşısını almaq, araşdırmaq, cəzalandırmaq və zorakılıq qurbanlarına təzminat ödənilməsini təmin etmək məqsədi ilə lazımi səylərin göstərilməsi üçün müvafiq qanunvericilik və digər tədbirlər görürlər".**

Beləliklə, bu sənəd hüquqi öhdəlik yaratdığından, iştirakçı dövlətlər qadınlara qarşı zorakılıq və məişət zorakılığı halları ilə bağlı adekvat tədbirlər görməklə bağlı məsuliyyət daşıyır.

Beləliklə, İstanbul Konvensiyasında təkcə qurbanların pozulmuş hüquqlarının müdafiəsi deyil, eyni zamanda, qadınların qurbana çevrilməməsi üçün qabaqlayıcı tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulub.

**İstanbul Konvesiyasının strukturu:**

İstanbul Konvensiyası 81 maddə və 12 fəsildən ibarətdir. Sözügedən beynəlxalq sənəd 4 əsas prinsipə əsaslanır:

- Qabaqlayıcı tədbirlər
- Müdafiə tədbirləri
- Cinayət təqibi
- Kompleks tədbirlər.

İstanbul Konvensiyası zorakılığa haqq qazandıran və onun yayılmasına səbəb olan, qadınların kişilərdən aşağı statusa malik olması ilə bağlı düşüncələri və qadın və kişi rollarına dair formalaşmış qərəzli fikir və adət-ənənələri aradan qaldırmağa yönəlməklə, iştirakçı dövlətləri "mədəniyyət, adət-ənənə, din və "namus" kimi halların hər hansı bir zorakılıq aktına bəraət qazandıran səbəb hesab olunmamasını" təmin etməyə dəvət edir.

**Ekspert qrupu barədə:**

Konvensiyanın iştirakçısı olan dövlətlər tərəfindən icrasına nəzarəti qadınlara qarşı zorakılıq və məişət zorakılığına qarşı fəaliyyət üzrə ekspertlər qrupu (bundan sonra "GREVİO") həyata keçirir.

GREVIO gender və coğrafi balans, o cümlədən mövzu üzrə hərttərəfli biliklərə dair meyarlar nəzərə alınmaqla minimum 10, maksimum isə 15 üzvdən təşkil olunur. Ekspert qrupunun üzvlərini Tərəflərin Komitəsi həmin dövlətlərin irəli sürdüyü namizədlər arasından bir dəfə yenilənə bilən dörd illik müddətə və Tərəflərin vətəndaşları arasından seçir.

Tərəflər GREVİO tərəfindən tərtib olunmuş sorğu anketi əsasında bu Konvensiyanın müddəalarının icrası ilə bağlı həyata keçirilən qanunvericilik tədbirlərinə və digər tədbirlərə dair hesabatı Avropa Şurasının Baş katibinə GREVİO-nun nəzərdən keçirməsi üçün təqdim edir.

GREVIO lazım bildiyi hallarda bu Konvensiyanın həyata keçirilməsinə dair ümumi tövsiyələr qəbul edə
bilər.

# II BÖLMƏ

# Gender əsaslı zorakılıq qurbanlarına hüquqi yardım: milli və beynəlxalq müdafiə mexanizmləri

## 3-cü fəsil

## Məişət zorakılığına məruz qalmış şəxslər üçün təminatlar (xidmətlər)

Məişətzorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan sonra MZ Qanunu) məişət zorakılığının qarşısının alınmasına yönəlmiş bir sıra hüquqi, sosial və qabaqlayıcı tədbirləri müəyyən etmişdir.

### 3.1. Səhiyyə və sosial xidmətlər

***Sosial xidmətlər:***

Sözügedən Qanuna əsasən, sosial xarakterli tədbirlər dedikdə zərər çəkmiş şəxslərin sosial müdafiəsi üzrə, o cümlədən müvəqqəti sığınacaqla təmin edilməsi, onlara dövlət hesabına hüquqi və tibbi yardımın göstərilməsi, habelə digər sosial yönümlü tədbirlərin həyata keçirilməsi başa düşülür.

Sosial tədbirləraşağıdakılardan ibarətdir:

- zərər çəkmiş şəxslərin sosial müdafiəsinin təşkili, onlara müvafiq sənədlərin və ya qanunvericiliklə müəyyən edilmiş sosial müavinətlərin alınmasında kömək göstərilməsi.
- zərər çəkmiş şəxslərə təhsilin davam etdirilməsində kömək göstərilməsi;
- zərər çəkmiş şəxslərin işlə təmin edilməsində, yeni peşələrə yiyələnməsində kömək göstərilməsi;
- zərər çəkmiş şəxslərə dövlət vəsaiti hesabına tibbi yardımın göstərilməsi;
- zərər çəkmiş şəxslər üçün psixoloji reabilitasiya və psixoloji korreksiya kurslarının təşkili;
- zərər çəkmiş şəxslər üçün yardım mərkəzlərinin yaradılması;
- zərər çəkmiş uşaqların sosial qayğı ilə təmin edilməsi üçün tədbirlərin görülməsi;
- zərər çəkmiş şəxslərin sosial müdafiəsi istiqamətində digər tədbirlərin həyata keçirilməsi.

Zərər çəkmiş şəxslər üçün yardım mərkəzləri Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təşkil olunur və həmin dövlət mərkəzlərində göstərilən xidmətlər ödənişsiz əsaslarla aparılır.

Qanunun 19.3-cü maddəsinə əsasən “Yetkinlik yaşına çatmamış zərər çəkmiş şəxslər yardım mərkəzində 3 ay müddətinədək, digər zərər çəkmiş şəxslər isə 2 ay müddətinədək zəruri hallarda sığınacaqla təmin oluna bilərlər.”

Bu tipli yardım mərkəzləri yerli özünüidarə orqanları, qeyri-hökumət təşkilatları, digər qurumlar və şəxslər tərəfindən yaradıla bilər, lakin, qeyri-dövlət yardım mərkəzləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində akkreditasiyadan keçməlidirlər.

***Səhiyyə xidmətləri:***

Səhiyyə xidmətləri aşağıdakı tədbirləri əhatə edir:

- Zərərçəkmişlərin müəyyən edilməsi
- İlk yardım
- Xəsarətlərin qiymətləndirilməsi və təcili tibbi yardım və müalicə
- Cinsi zorakılığın müəyyən edilməsi və müvafiq qayğı
- Psixi sağlamlığın qiymətləndirməsi və yardım
- Sənədləşdirmə

Səhiyyə xidmətlərinin əsas və mühum hissələrindən birini məhz sənədləşdirmə təşkil edir. Belə ki, aidiyyəti sənədlərdə şəxsin məişət zorakılığa məruz qalıb-qalmaması, onun fiziki sağlamlığı və psixoloji durumuna vurulmuş zərərin ağırlıq dərəcəsi, onun vəziyyətin təfərrüatlı şəkildə təsvir olunması, həmçinin, əməli törətmiş şəxs barəsində müvafiq məsuliyyət növünün müəyyən edilməsi, həmin şəxslə bağlı məhkəmə-tibbi dəlillərin toplanması və sair xarakterli digər məsələlər qeyd olunur.

## 3.2. Hüquqi xidmətlər

Hüquqi xarakterli tədbirlər dedikdə məişət zorakılığı hallarının araşdırılması, məişət zorakılığına yol vermiş şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi və zərər çəkmiş şəxslərin müdafiəsi ilə bağlı tədbirlər nəzərdə tutulur.

Məişət zorakılığının qarşısının alınması sahəsində hüquqi tədbirlərin növləri və siyahısı Qanunun 14-cü maddəsində müəyyən edilmişdir. Həmin tədbirlər aşağıdakıladan ibarətdir:

- məişət zorakılığı ilə bağlı cinayət təqibinin həyata keçirilməsi;
- məişət zorakılığı törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi;
- zərər çəkmiş şəxslərin hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin müdafiəsi, araşdırmanın aparıldığı müddət ərzində müraciət etmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi;
- zərər çəkmiş şəxslərin dövlət vəsaiti hesabına hüquqi yardımla təmin edilməsi;
- məişət zorakılığı ilə bağlı işlərə dair məhkəmə qərarlarının icrasının təmin edilməsi;
- məişət zorakılığı ilə bağlı verilmiş xəbərdarlığın icrasına nəzarətin həyata keçirilməsi;

- məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxslərin qanunvericiliklə müəyyən olunmuş qaydada
- valideynlik hüququndan məhrum edilməsi və ya valideynlik hüquqlarının
- məhdudlaşdırılması;
- məişət zorakılığı ilə bağlı statistik məlumatların toplanması;
- qanunvericiliklə müəyyən edilmiş qaydada məişət zorakılığı ilə bağlı məlumatların konfidensiallığının təmin edilməsi;
- qeyri-dövlət yardım mərkəzlərinin fəaliyyəti ilə bağlı normativ tənzimləmənin və həmin mərkəzlərin akkreditasiyasının həyata keçirilməsi.

Hüquqi tədbirlərin ilk 6 növü ilə bağlı bu təlimatın 4-cü və 5-ci fəsillərində geniş şəkildə izahat verilmişdir.

Əlavə olaraq, qeyd edilməlidir ki, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 64-cü maddəsinə əsasən valideynlik hüquqlarından sui-istifadə edilməsi; uşaqlara qarşı məişət zorakılığı ilə bağlı hərəkətlərin törədilməsi; uşaqların və ya ərinin (arvadının) sağlamlığına və ya həyatına qarşı qəsdən edilmiş cinayətin törədilməsi hər biri ayrı-ayrılıqda şəxsin valideynlik hüquqlarından məhrum edilməsinə əsas yaradır.

Şəxs barəsində məişət zorakılığının törədilməsi faktı və zərər çəkmiş şəxslərə yardım göstərildiyi vaxt əldə edilmiş məlumatlar "şəxsi və ailə həyatı" kategoriyasına aid edildiyindən həmin məlumatların konfidensiallığı, şəxsi və ailə sirrinin yayılmaması təmin edilməlidir. Bu məqsədlə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən məlumat bankı yaradılmış və həmin məlumat bankında toplanmış məlumatların konfidensiallığı Komitə tərəfindən təmin edilir.

### 3.3. Qabaqlayıcı tədbirlər (müdafiə mexanizmlərinin müyəssərliyi)

Qabaqlayıcı tədbirlər əsasən əhali arasında məişət zorakılığının mənfi hüquqi, tibbi və sosial nəticələrinə dair məlumatlandırma, habelə məişət zorakılığının qarşısının alınmasına yönəlmiş digər maarifləndirmə tədbirlərinin təşkilini özündə ehtiva edir.

Məişət zorakılığı ilə bağlı qabaqlayıcı tədbirlər məişət zorakılığının qarşısının alınması, ailələrdə normal münasibətlərin yaradılması, məişət zorakılığı halları və bu halların doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin aradan qaldırılmasına yönəlibdir.

Qanunun 16-ci maddəsi ilə qabaqlayıcı tədbirlərin növləri aşağıdakı kimi müəyyən edilmişdir:

- məişət zorakılığı əleyhinə maarifləndirmə işinin aparılması;
- məişət zorakılığı hallarının və onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin izah edilməsi;
- məişət zorakılığının qarşısının alınması üsullarının izah edilməsi;

- əhali arasında yüksək mədəniyyətə və qarşılıqlı hörmətə əsaslanan ailə münasibətlərinin təbliğ edilməsi;
- məişət zorakılığına səbəb olan halların araşdırılması, təhlil edilməsi, onların qarşısının alınmasına yönəlmiş tövsiyələrin, proqramların hazırlanması, maarifləndirmə tədbirlərinin təşkili;
- məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması;
- məişət zorakılığına görə qanunvericiliklə müəyyən olunmuş məsuliyyətin izah edilməsi;
- məişət zorakılığı törətmiş şəxslərə belə halların təkrarlanmaması barədə xəbərdarlıq edilməsi;
- məişət zorakılığı ilə bağlı sorğuların keçirilməsi.

Maddənin 1-5-ci və 9-cu hissələrində nəzərdə tutulmuş vəzifələrin icrasına nəzarət Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerl icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir; digər vəzifələr isə yerli icra hakimiyyəti orqanlarına aid edilir.

Bununla yanaşı, qeyd olunan tədbirlərin effektivliyini təmin etmək məqsədi ilə ilknövbədə bu tədbirlərin əlçatanlığının təmin edilməsi ilə bağlı fəaliyyət həyata keçirilməlidir. Belə ki, İstanbul Konvensiyasına əsasən Konvensiyaya üzv olan ölkələr tərəfindən qurbanlar üçün əlçatan olan dəstək xidmətləri və hüquqi tədbirlər haqqında onların anlaya biləcəkləri dildə adekvat və vaxtında məlumat almalarını təmin etmək üçün zəruri qanunvericilik tədbirləri və ya digər tədbirlər görürməlidir.

Zorakılıq qurbanlarının müdafiə mexanizmlərinə çıxışının təmin edilməsi dedikdə zorakılıq qurbanlarına milli hüquqi müdafiə vasitələrindən heç bir maneə olmadan istifadə etmə imkanı, həmin vasitələr tükəndikdə isə, beynəlxalq şikayət mexanizmlərindən yararlanması nəzərdə tutulur. Bu məqsədlərə nail olmaq üçün müdafiə xidmətlərinin 7/24 fəaliyyətini təmin etməklə, onların coğrafi baxımdan əl çatan olmasını, yaxınlıqda olmadıqda isə, zərər çəkmiş şəxsin digər mövcud vasitələrlə polis orqanları ilə təhlükəsiz qaydada əlaqə saxlaması/müraciət etməsi üçün mexanizmlər yaradılmalıdır.

### 3.4. Xidmətlərin əlaqələndirilməsi

Qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə bağlı tədbirlərin effiktivliyini təmin etmək məqsədi ilə bütün yuxarıda sadalanan xidmətlərin əlaqələndirilməsi və bir-birinə inteqrasiya edilməsi zəruridir.

Təcrübə göstərir ki, qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə bağlı mübarizə sahəsində uğurlu nəticələrin əldə edilməsi polis, məhkəmə sistemi, sosial xidmətlər, səhiyyə, qadınlarla işləyən QHT-lər, uşaqların müdafiəsi təşkilatlarının və digər əlaqədar qurumların sıx əməkdaşlıq çərçivəsində fəaliyyət göstərməsindən birbaşa asılıdır.

Buna görə də risklərin qiymətləndirməsi, təhlükəsizliyin və zərurət olarsa dəstəyin təmin edilməsi üçün sözügedən təşkilatların əlaqələndirilmiş fəaliyyəti zərər çəkmiş şəxslərin təhlükəsizliyinin təmin edilməsi və müdafiəsi işini daha effektiv həyata keçirməyə imkan yaradır. Məhz buna görə də İstanbul Konvensiyası iştirakçı dövlətləri aşağıdakıları etməyə dəvət edir:

- Bütün sektorları əlaqələndirən qanunlar və siyasət tədbirləri toplusunun müəyyənləşdirilməsi;
- Qurbanların hüquqlarının bütün görülən tədbirlərin mərkəzində olmasının təmin edilməsi;
- Dövlət qurumları, milli və yerli təşkilatlar, o cümlədən parlamentlər, vətəndaş cəmiyyəti təşkilatları da daxil olmaqla bütün müvafiq qurumların iştirakçılarının rolunun əhəmiyyətinin tanınması.

Əlaqələndircidövlət qurumunun təsis edilməsi – İstanbul Konvensiyasının tələblərinə əsasən, dövlətlər müxtəlif qurumların fəaliyyətlərini əlaqələndirmək, qanun və dövlət proqramlarının icrası, monitorinqi və qiymətləndirilməsi üzrə rəsmi dövlət qurumu təsis etməlidirlər.

# 4-cü fəsil
# Məişət zorakılığı barədə şikayətlərin araşdırılması zamanı qurbanların hüquqi müdafiəsi

## 4.1. Şikayətlərin müvafiq orqanlarda araşdırılmasının xüsusiyyətləri. Effektivlik.

**Məişət zorakılığı barədə şikayətlər hansı orqanlarda araşdırılır?**

- şikayətdə törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat olduqda, şikayət ibtidai istintaq orqanları tərəfindən araşdırılır;
- şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə yerli icra hakimiyyəti orqanları tərəfindən baxılır;
- məişət zorakılığı xarakterli inzibati xətalara dair işlərə ümumi məhkəmələrdə və ya polis orqanlarında baxılır;
- məişət zorakılığına məruz qalmış şəxslərə uzunmüddətli mühafizə orderinin verilməsi ilə bağlı işlərə mülki mühakimə icraatı qaydasında ümumi məhkəmələrdə baxılır.

**Cinayət xarakterli məişət zorakılığı ilə bağlı şikayətlərin ibtidai istintaq orqanlarında araşdırılması**

***"Məişət zorakılığı" cinayət əməli kimi***

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində "məişət zorakılığı" adlı cinayət əməli nəzərdə tutulmayıb. Lakin MZ Qanununun 4-cü maddəsində sadalanan şəxslər yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəlllər birgə yaşamaqlarından sui-istifadə etməklə (məişət zəminində) bir-birinə qarşı Cinayət Məcəlləsində nəzərdə tutulmuş əməlləri (məsələn: qəsdən adam öldürmə, qəsdən sağlamlığa zərər vurma, zorlama, və s.) törədərlərsə, bu əməllər cinayət xarakterli məişət zorakılığına aid edilərək, cinayət-prosessual qanunvericilikdə müəyyən edilmiş qaydada araşdırılmalıdır.

Adətən məişət zəminində ən çox aşağıda adları çəkilən cinayətlər törədilir:

- Həyat və sağlamlıq əleyhinə olan cinayətlər: qəsdən adam öldürmə cinayətləri, özünü öldürmə həddinə çatdırma, qəsdən sağlamlığa müxtəlif dərəcəli zərər vurma, əzab vermə, öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə;
- Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər: insan alveri, məcburi əmək, qanunsuz azadlıqdan məhrum etmə;
- Şəxsin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər: zorlama, seksual xarakterli zorakılıq hərəkətləri, seksual xarakterli hərəkətlərə məcbur etmə, on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə, əxlaqsız hərəkətlər;
- Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər: qadını nikaha daxil olmağa məcbur etmə.

Cinayət Məcəlləsinin 61.1.7-ci maddəsinə əsasən cinayətin təqsirkar tərəfindən aşkar surətdə hamilə vəziyyətində olan qadın, habelə azyaşlı, qoca və köməksiz vəziyyətdə olan və ya təqsirkardan asılı vəziyyətdə olan şəxsə qarşı törədilməsi cəzanı ağırlaşdıran hal kimi nəzərdə tutulmuşdur. Bu maddədə sadalanan şəxslər əksər hallarda MZ Qanunun 4-cü maddəsində qeyd edilən şəxslərlə (yaxın qohumluq münasibətlərində olan, birgə və ya əvvəlllər birgə yaşayan şəxslər) eyni şəxslərdir.

**Məişət zorakılığı ilə bağlı cinayətlər necə araşdırılır?**

Cinayət Prosessual Məcəllədə məişət zorakılığı ilə bağlı olan cinayətlərin araşdırılmasının xüsusi qaydası nəzərdə tutulmamışdır. Məsələn, məişət zorakılığı ilə bağlı olan cinayət işinin başlanması proseduru digər xarakterli cinayət işlərinə də şamil olunan ümumi qaydalara əsasən həyata keçirilir. MZ Qanununun 6.1-ci maddəsində məişət zorakılığı üzrə araşdırmanın aparılması üçün müəyyən olunan səbəblər (zərərçəkmiş şəxsin özünün və ya onun ailə üzvlərinin şikayəti, fiziki və ya hüquqi şəxslərdən, dövlət və yerli özünüidarə orqanlarından, o cümlədən təhsil və səhiyyə müəssisələrdən, qeyri-hökumət təşkilatlarından, kütləvi informasiya vasitələrindən daxil olmuş müraciətlər) Cinayət Prosessual Məcəllənin 204-206-cı maddələri ilə (törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki şəxslərin, hüquqi şəxslərin (vəzifəli şəxslərin) və kütləvi informasiya vasitələrinin məlumatları) əhatə olunur.

Beləliklə, məişət zorakılığı ilə əlaqədar olan cinayətlər üzrə cinayət təqibi (cinayət hadisəsinin müəyyən edilməsi, cinayəti törətmiş şəxslərin ifşa olunması, ittiham irəli sürülməsi, ittihamın məhkəmədə müdafiə edilməsi, cəzanın təyini, prosessual məcburiyyət tədbirləri ilə bağlı fəaliyyət) üçün ayrıca normalar mövcud deyildir. Bu tipli cinayətlər üzrə cinayət təqibi  digər cinayətlərlə eyni qaydada həyata keçirilir.

İbtidai istintaq orqanları bir çox hallarda şikayətlərə (təkcə məişət zorakılığı ilə əlaqədar olan şikayətlərə deyil) məktubla cavab verərək şikayətdə cinayət tərkibinin əlamətlərinin olmadığını bildirirlər. Halbuki Cinayət Prosessual Məcəllənin 207.5-ci maddəsinə əsasən törədilmiş və ya planlaşdırılan cinayət haqqında məlumatların alındığı hər bir halda cinayət işini başlamaq, cinayət işinin başlanmasını rədd etmək və ya məlumatı istintaq məqsədi ilə aidiyyatı üzrə göndərmək kimi prosessual qərarlardan biri qəbul edilməlidir. Əgər istintaq orqanı şikayətdə cinayət tərkibinin əlamətlərinin olmadığını (cinayət işinin başlanması üçün əsasların olmadığını) bildirirsə, cinayət işinin başlanmasının rədd olunması barədə qərarın qəbuluna nail olunmalıdır. "İmtina məktubu"ndan fərqli olaraq belə bir qərarın mübahisələndirilməsi və qərarla bağlı yuxarı orqana və ya məhkəməyə şikayət etmək mümkündür.

**Effektivlik:**

MZ Qanununun 7-ci maddəsində məişət zorakılığı ilə bağlı şikayətlərə cinayət prosessual qanunvericilikdə müəyyən edilmiş qaydada baxılarkən cinayət təqibi ilə yanaşı görülməli tədbirlərin siyahısı müəyyən olunmuşdur. Bu tədbirlər əsasən hüquqi xarakterli (cinayət təqibinin həyata keçirilməsi ilə yanaşı, zərər çəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər), sosial xarakterli (məsələn, zərərçəkmiş şəxsin yardım mərkəzində müvəqqəti sığınacaqla, geyim və qida ilə təmin edilməsi) və qabaqlayıcı (məsələn, məişət zorakılığı törətmiş şəxsə tərbiyəvi-qabaqlayıcı işin görülməsi, məişət zorakılığının qarşısını almaq istiqamətində tədbirlərin görülməsi) tədbirlərdən ibarətdir. Lakin belə tədbirlərin reallıqda ibtidai istintaq orqanları tərəfindən həyata keçirilməsinin effektivliyi sual altındadır.

Məişət zorakılığı ilə əlaqədar cinayət işləri üzrə cinayət təqibi xüsusi yanaşma tələb edir. Belə ki, zərərçəkmiş şəxsin dindirilməsi zamanı mühakimə və günahlandırma yönümlü deyil, dəstəkləyici və qurbanın hüquqlarına hörmətlə yanaşma sərgilənməlidir, zərərçəkmiş azyaşlı qızlara xüsusilə həssas münasibət göstərilməlidir və s. Bunu nəzərə alaraq aidiyyatı qurumlarda ixtisaslaşmış bölmə və mütəxəssislərə ehtiyac vardır (məsələn, polis orqanlarında, prokurorluqda gender əsaslı zorakılığı araşdıran struktur bölmələr, ixtisaslaşmış polis və prokurorluq əməkdaşları).

Zərərçəkmiş şəxslərin zorakılıq barədə məlumat verməyə həvəsləndirilməsi, habelə onların dövlət orqanlarına məlumat vermək tendensiyasının müəyyən olunması məqsədilə hüquq mühafizə orqanlarına bildirilən zorakılıq hallarının dəqiq qeydiyyatını aparmaq üçün mexanizmlər müəyyən edilməli, müvafiq təhlillər aparılmalıdır.

Cinayət tərkibinin olmasından asılı olmayaraq məişət zorakılığı ilə bağlı bütün hallar müvafiq qaydada sənədləşdirilməlidir.



Məişət zorakılığı xarakterli cinayətlərin araşdırılması vaxtında başlanılmalı, peşəkar səviyyədə aparılmalı, şübhəli şəxsin müəyyən edilməsi və saxlanılması üçün bütün mövcud imkanlardan istifadə olunmalı, həmin müddət ərzində zərərçəkmiş şəxsin mühafizəsi təmin edilməlidir. Bundan əlavə, zərərçəkmiş şəxsin aldığı fiziki və psixi travmalar, onun yaşı, cinsi nəzərə alınmalı, zorakılıq riskinin zərərçəkmiş şəxsin özünə və ailəsinə potensial təsiri hərtərəfli qiymətləndirilməlidir. Bunun üçün ərizə dərhal qeydə alınmalı, zəruri halda və vaxtında tibbi müayinə təmin olunmalı, zəruri istintaq hərəkətləri aparılmalı, dindirmə şəraiti (otaqlar) zərərçəkmiş şəxsin yaşına, cinsinə və digər diqqətəlayiq hallara uyğun olmalı, bütün həssas məqamlar nəzərə alınmalıdır. Eyni zamanda, ibtidai istintaq orqanları məişət zorakılığı ilə bağlı işləri araşdırarkən digər əlaqədar qurumlarla daim təmasda olmalı, ehtiyac olarsa, qurbanları müvafiq xidmətlərdən istifadə üçün (məsələn, sığıncaq, hüquqi və psixoloji yardım) aidiyyatı təşkilatlara yönləndirməlidir.

İbtidai istintaq orqanları ailədaxili məsələlərə qarışmamaq və icraata xitam vermək mövqeyini tutmamalı, zorakılığa məruz qalmış qadınların müraciətlərinə ciddi yanaşmalı, zərərçəkənləri öz şikayətlərini geri götürməyə təhrik etməməli, haqqında məlumatları olan və yaxud da ehtimal edilən hər bir zorakılıq hadisəsinə vaxtında reaksiya verməli, zorakılığın qarşısını almaq, qadınları məişət zorakılığıdan müdafiə etmək üçün effektiv tədbirlər görməlidirlər.

Qeyd olunan tələblərə əməl olunmaması AİHM-nın məişət zorakılığı ilə bağlı şikayətlər əsasında çıxardığı qərarlarda "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" AİHK-nın bir sıra maddələrin pozulmasının müəyyən edilməsi ilə nəticələnmişdir. Bura zorakılıqdan birbaşa müdafiə edən–Yaşamaq hüququna dair 2-ci maddə, İşgəncələrin qadağan olunmasına dair 3-cü maddə, Şəxsi həyata və ailə həyatına hörmət hüququna dair 8-ci maddə; habelə, müdafiəyə xidmət edən digər maddələr olan –. Ədalətli məhkəmə araşdırması hüququna dair 6-cı maddə, Səmərəli hüquqi müdafiə vasitələri hüququna dair 13-cü maddə, Ayrı-seçkiliyin qadağan olunması üzrə 14-cü maddələrin pozulmasına dair qərarlar daxildir.

Azərbaycan cəmiyyəti üçün də xas olan hallarla zəngin olan *"Opuz Türkiyəyə qarşı"* işi üzrə AİHM aşağıdakıları bildirmişdir:

- ...dövlət orqanlarının yaşamaq hüququnu qorumaqdan ibarət pozitiv öhdəlikləri var. Əgər bu öhdəliyin pozulması iddia edilirsə, sübut edilməlidir ki, dövlət orqanları üçüncü şəxslərin cinayətkar hərəkətləri ucbatından müəyyən fərdin və ya fərdlərin həyatına qarşı real və birbaşa *təhlükənin mövcud olduğunu bilirdilər və ya bilməyə borclu idilər*, amma səlahiyyətləri çərçivəsində olan və təhlükənin aradan qaldırılması üçün *onlardan haqlı olaraq gözlənilə bilən tədbirləri görməyiblər...*

- ...ərizəçiyə və onun anasına qarşı ərizəçinin əri tərəfindən mütəmadi şəkildə artmaqda olan zorakılıq halları baş verirdi. ...ərizəçinin və onun anasının vəziyyəti dövlət orqanlarına məlum idi... Lakin dövlət orqanlarının müdaxiləsi ərizəçinin ərindən ifadələrin alınması ilə məhdudlaşmışdır. *...hakimiyyət orqanları ərizəçinin ərinin ölümlə nəticələnən hücumunu öncədən ehtimal edə bilərdilər.*

- ...dövlət orqanları ərizəçinin ərinin keçmişdə törətdiyi cinayətlərin ağırlığını nəzərə alaraq, zərərçəkənlər tərəfindən *şikayətlərin geri götürülməsinə baxmayaraq ictimai maraq naminə işin icraatını davam etdirməli idilər.* ... Əgər zərərçəkmiş şəxsin həyat və sağlamlığı təhlükə altındadırsa, milli qanunvericiliyin zorakılığa məruz qalmış şəxsə şikayəti geri götürmək imkanını təmin etməsinə baxmayara, dövlət orqanları fərdlərin şəxsi və ya ailə həyatına müdaxilə edərək zərərçəkmiş şəxsin müdafiəsini həyata keçirməlidirlər.

- ...dövlətin qadınları ailədaxili zorakılıqdan müdafiə etməməsi onların qanun əsasında *kişilərlə bərabər qaydada müdafiə olunmaq hüququnu pozur* və bu zaman pozuntunun məqsədli şəkildə edilib-edilməməsi əhəmiyyət daşımır.

AİHM-nin *"Kontrova Slovakiyaya qarşı"* işi üzrə qəbul etdiyi qərar da bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Belə ki, ərizəçinin ailəsindəki vəziyyətin polis bölməsinə məlum olması belə bir qiymətləndirməyə gətirib çıxarmışdır ki, *ərizəçinin uşaqlarının ölümü polis orqanlarının qanunsuz hərəkətlərinin birbaşa nəticəsidir.* Bu işdə polis əməkdaşı zorakılıq hadisəsinin xırda hüquq pozuntusu hesab edilməsi üçün ərizəçinin şikayətinin dəyişdirilməsi məqsədilə ərizəçiyə və onun ərinə kömək etmişdir.

Qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə bağlı AİHM-nin prinsipləri və dövlətin pozitiv öhdəlikləri bu vəsaitini 2-ci fəslinin Avropa İnsan Hüquqları Konvensiyası adlı yarım bölməsində () ətraflı şəkildə izah edilmişdir.

**İnzibati xəta xarakterli məişət zorakılığı ilə bağlı şikayətlərin araşdırılması**

***"Məişət zorakılığı" inzibati xətası***

İXM-nin "Məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulması" adlı 158-ci maddəsində məişət zorakılığının iki növünə görə inzibati məsuliyyət müəyyən olunmuşdur: iqtisadi zorakılıq və psixi zorakılıq.

Bu əməllərin cinayət məsuliyyətinə səbəb olmadığı hallarda belə, zorakılıq əməllərinə görə, 100 manatdan 500 manatadək cərimənin müəyyən edilməsi həmin xətaların xarakterinə uyğun deyil.

Yuxarıda adları çəkilən hər iki inzibati xətaya dair işlərə ümumi məhkəmələrdə baxılır. Bu işlər üzrə inzibati xəta haqqında protokol Daxili İşlər Nazirliyi adından nazirliyin müəyyən vəzifəli şəxsləri (məsələn, ərazi polis bölmələrinin rəisləri, təhqiqatçılar, əməliyyat müvəkkiləri, polis sahə rəisləri və s.) tərəfindən tərtib olunur.

İXM-nin 157-ci maddəsində nəzərdə tutulan "Döymə" adlı inzibati xəta məişət zəminində törədildiyi halda məişət zorakılığı hesab edilə bilər. Bu əmələ görə cərimə ilə yanaşı inzibati həbs növündə inzibati tənbeh nəzərdə tutulmuşdur. Bu inzibati xəta ilə bağlı işlərə həm məhkəmədə (işə məhkəmədə baxılarkən inzibati xəta haqqında protokol polis orqanlarında tərtib olunur), həm də polis orqanlarında baxıla bilər. İşin halları nəzərə alınmaqla, habelə inzibati həbsin tətbiqi üçün əsaslar olarsa işə məhkəmədə baxılmalıdır.

***Məişət zorakılığı ilə əlaqədar inzibati xətalara baxılmasının prosedur qaydaları***

Məişət zorakılığı ilə əlaqədar inzibati xətalara dair xüsusi prosedur qaydalarının olmamasına görə, bu hallarda da ümumi prosedur qaydaları tətbiq olunur.

İnzibati xətanı törətmiş şəxslə zərərçəkmiş şəxsin barışması inzibati xəta haqqında işlər üzrə icraatı rədd edən hal kimi müəyyən olunmuşdur.

***Effektivlik***

İnzibati xəta haqqında işlərə baxılmanın xüsusiyyətləri nəzərə alınmaqla, cinayət xarakterli şikayətin araşdırılması zamanı effektivlik baxımından irəli sürülən fikirlər burada da keçərlidir.

**Cinayət xarakterli olmayan məişət zorakılığı ilə bağlı şikayətlərin yerli icra hakimiyyəti orqanlarında araşdırılması**

***Araşdırmanın qaydası***

Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlaməti olmadıqda, həmin şikayətə zərərçəkmiş şəxsin yaşadığı (olduğu) yerin icra hakimiyyəti orqanında baxılır.

Şikayət yalnız zərərçəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olduqda araşdırılır. Bu, məişət zorakılığı olduğu halda digər şəxslərin, yaxud hər hansı qurumun bu barədə yerli icra hakimiyyəti orqanına müraciət etməsini məhdudlaşdırmır.

Şikayətə beş gün müddətində baxılaraq qərar qəbul edilməlidir. Bu müddət, əlavə araşdırmanın aparılması zərurəti əsasında beş gündən çox olmayan müddətə uzadıla bilər.

Araşdırma zamanı zərurət olduqda dərhal hadisə yerində araşdırma aparılır, tərəfər ayrılıqda dinlənilir, zərərçəkmiş şəxsin tələbi ilə vəkil və psixoloqun iştirakı, dinlənilən şəxs Azərbaycan dilini bilmədikdə isə tərcüməçinin iştirakı təmin olunur. Zərəçəkmiş şəxs 16 yaşınadək və ya əlilliyi olan şəxs olduqda, araşdırmada pedaqoqun və ya psixoloqun iştirakı məcburidir.

Şikayətə baxılmanın nəticəsində aşağıdakı qərarlardan biri qəbul olunur:

- məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsə cinayət və inzibati məsuliyyət izah edilməklə, məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderinin verilməsi;
- məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin valideynlik hüququndan məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ilə bağlı məhkəməyə müraciət edilməsi;
- əməllərində cinayət tərkibi və ya inzibati xəta olan şəxsin cinayət və ya inzibati məsuliyyətə cəlb edilməsi barədə səlahiyyətli dövlət orqanlarına müraciət edilməsi;
- zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi ilə əlaqədar məhkəməyə müraciət edilməsi;
- zərər çəkmiş şəxsin yardım mərkəzində sığınacaqla təmin edilməsi.

***Gender əsaslı zorakılıq və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları (yerli monitorinq qrupları)***

Hər bir rayonda yerli icra hakimiyyəti nəzdində icra və digər əlaqəli orqanların yerli nümayəndələrindən ibarət tərkibdə "Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupu" yaradılmışdır. Yerli icra hakimiyyətinin başçısının humanitar məsələlər üzrə müavini bu monitorinq qrupunun rəhbəri təyin olunub.

Yerli monitorinq qrupları gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə etibarlı monitorinq mexanizmi olaraq, yerlərdə aşağıdakı istiqamətlər üzrə fəaliyyətlərin əlaqələndirilməsi funksiyası daşıyır:

- vəziyyətin qiymətləndirilməsi;
- həyata keçirilən tədbirlərin effektivliyinin yoxlanılması;
- riskli ailələrin müəyyən edilməsi və lazımi dəstəyin göstərilməsi;
- zorakılığın səbəblərinin araşdırılması və təhlil edilməsi;
- baş vermiş ağır zorakılıq hallarının müzakirəsi;
- zorakılıq qurbanlarına qısamüddətli mühafizə orderinin verilməsi də daxil olmaqla, onların müdafiəsi və müvafiq yardımlarla təmin edilməsi.

***Cinayət və ya inzibati xarakterli olmayan məişət zorakılığı ilə bağlı şikayətlərin yerli icra hakimiyyəti orqanlarında baxılmasının effektivliyinin təmin edilməsi üçün***:

Qanunvericilikdə vəkilin bu araşdırmada iştirakının məcburiliyini tənzimləyən dəqiq prosedurların müəyyən edilməsinə ehtiyac var.

Yerli icra hakimiyyəti orqanlarının nəzdində məişət zorakılığı ilə bağlı şikayətləri araşdıran xüsusi struktur bölmələr yaradılmalı, mütəxəssislər cəlb olunmalı, müvafiq araşdırma və davranışa dair standartlar müəyyən olunmalıdır.

Bundan əlavə, məişət zorakılığı ilə bağlı şikayətlərə yerli icra hakimiyyəti orqanlarında baxılmanın xüsusiyyətləri nəzərə alınmaqla, cinayət xarakterli şikayətin araşdırılması zamanı effektivlik baxımından irəli sürülən fikirlər burada da keçərlidir Araşdırmanın effektivliyinə birbaşa təsir edən mümkün risk amilləri barədə 1.1-ci bölmədə də məlumat verilmişdir.

## 4.2. Gender əsaslı zorakılıqla bağlı cinayət işində vəkilin yaddaş vərəqi

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 124-cü maddəsinə əsasən, qanunla müəyyən edilmiş qaydada təhqiqatçı, prokuror və məhkəmə tərəfindən Cinayət Məcəlləsində nəzərdə tutulan hərəkətin şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən törədilib-törədilmədiyini, yaxud təqsirləndirilən şəxsin təqsirli olub-olmamasını, habelə işin düzgün həll edilməsi üçün əhəmiyyət kəsb edən digər halları müəyyən etmək üçün əsas götürülən hər hansı fakt xarakterli məlumatlar cinayət təqibi üzrə sübutlar hesab olunur.”

Bu məlumatlar aşağıdakılar vasitəsilə müəyyən edilir:
1) şübhəli şəxsin, təqsirləndirilən şəxsin, zərər çəkmiş şəxsin, şahidin ifadəsi;
2) ekspert rəyi;
3) maddi sübutlar;
4) stintaq və məhkəmə hərəkətlərinin protokolları;
5) digər sənədlər.

**a) Zərər çəkmiş şəxslə müsahibə**

Gender əsaslı zorakılıqdan zərər çəkmiş qadının psixoloji vəziyyətini nəzərə alaraq, vəkil zərər çəkmiş şəxslə müsahibəyə diqqətlə hazırlaşmalıdır. Bu baxımdan, deduktiv formada (ümumidən xüsusiyə) müsahibə ən adekvat üsul hesab olunur. Sorğu-sualın sonunda aşağıdakı sənədlər hazırlanmalıdır:

- cinayətdən şikayət,
- zərər çəkmiş şəxsin ifadəsi,
- şahidlərin, şübhəli şəxs(lər)in və zərər çəkmiş şəxsin yaxın ətrafının əlaqə nömrələri və ünvanları.

**b) Məhkəmə-tibbi ekspertiza rəyi və tibbi anamnezdən çıxarışlar.**

Bədən xəsarəti olduqda, xəsarət almış şəxs ən yaxın tibb müəssisəsinə və mümkün olduğu təqdirdə, məhkəmə-tibbi ekspertiza üçün yazılı göndəriş almaq üçün polis məntəqəsinə yönləndirilməlidir. Təmin edilən məhkəmə-tibbi ekspertiza rəyi işin istintaqı və məhkəmə prosesində mühüm rol oynayır. Zorakılıq iddiasına dair sübutlara, həmçinin, xəstəlik tarixçəsindən çıxarışlar, ambulator tibbi kitabçadakı qeydlər və tibbi müayinə forması daxilolmalıdır.

Nəzərdə saxlamaq lazımdır ki, pasiyentin ambulator tibbi kitabçasında olan qeydlər, xəstəlik tarixçəsindən çıxarışlar, tomoqrafik müayinənin, rentgen müayinəsinin nəticələri və s. cinayət işi üçün ekspert rəyi hazırlayarkən məhkəmə-tibbi ekspertlər tərəfindən əsas sənədlər hesab edilir. Bununla əlaqədar olaraq diaqnozlarda, yaxud müalicənin başlanğıc və son tarixlərində səhvlərin, yaxud düzəlişlərin olmamasını yəqin etmək lazımdır.

Kəllə-beyin zədələnməsi baş verdikdə, ekspert zədələnmənin dərəcəsini müəyyən edərək müvafiq qeydi etməli və onun verdiyi ekspert rəyi topoqrafik təsvirləri əks etdirməlidir. Gözlə görünən sıyrıntılar olduqda, sıyrıntının olduğu yerdə xətkeşlə foto fiksasiya tətbiq etmək və onu ekspertizaya göndərmək lazımdır.

**c) Yazışmalar, fotolar, zənglər və şahidlər.**

Əlavə sübut kimi, sosial şəbəkələrdə, ünsiyyət üçün tətbiqlərdə (WhatsApp /Telegram) aparılan yazışmalar müstəntiqlərə göndərilə bilər və onları müstəntiqə və ya məhkəməyə göndərməzdən əvvəl adekvat şəkildə sənədləşdirmək lazımdır.

**Mobil operator vasitəsilə edilən yazışmalar və zənglər.** Zərər çəkmiş şəxsin hüquqlarını mobil operator qarşısında təmsil etmək və onun telefon nömrəsi ilə apardığı kommunikasiyaya dair məlumatlar əldə etmək üçün zərər çəkmiş şəxsdən etibarnamə almaq və bundan sonra, SMS yazışmalar və zəng tarixçəsinə (zənglərin müddəti) dair mobil operatordan rəsmi cavab almaq üçün "Vəkillər və vəkillik fəaliyyəti haqqında" AR Qanununun 15-ci maddəsində müəyyən edilmiş qaydada vəkil sorğusu göndərmək lazımdır.

Zərər çəkmiş şəxs bu məlumatları mobil operatorun ofisində öz şəxsiyyət vəsiqəsini təqdim edərək ala bilər. Bundan əlavə, müstəntiqlərin müraciəti ilə, mobil operatorlar cinayətin baş verdiyi vaxt konkret abunəçinin olduğu yeri müəyyən etməyə imkan verən yerləşmə vərəqlərini verə bilər. Müstəntiqlərin bu məlumatlar üçün müraciət etmədiyi təqdirdə, vəkil istintaq orqanından bunu etməyi tələb etmək üçün müraciət göndərməlidir.

**Sosial şəbəkələrdə yazışmalar.** Sosial şəbəkələrdə yazışmalar olubsa, bu yazışmalar "Notarial hərəkətlərin aparılması haqqında Təlimat"a uyğun olaraq, hər hansı xüsusi notarius tərəfindən təsdiqlənməlidir.

**Ünsiyyət üçün tətbiqlər/Messencerlərdə yazışmalar**. Messencerlərdəki yazışmaların çap edilmiş nüsxələri istintaq orqanlarına təqdim edilə bilər. Bu yazışmalar məhkəmədə real sübut kimi istifadə edilə bilməsə də, dolayı sübut kimi nəzərdən keçirilə bilər.

Zəruri olduğu təqdirdə, vəkil gender əsaslı zorakılığı törədən şəxslə olan hər hansı şəkilləri surətini çıxarmaq və istintaq orqanına təqdim etmək üçün götürə bilər.

**d) Üçüncü tərəflərlə sorğular.**

Vəkil bütün şahidləri, zərər çəkmiş şəxsi tanıyan qonşuları və ifadəsi cinayəti açmağa və zərər çəkmiş şəxsi səciyyələndirməyə kömək edə biləcək şəxsləri sorğulamalıdır. Sorğu-sual zamanı onlar vəkilin adına izahat yazırlar. Daha sonra isə izahatların surətləri istintaq orqanına təqdim edilir və onların cinayət işinə daxil edilməsi tələb edilir.

**h) Hadisə yerinin foto-lövhələri.**

Vəkil həmçinin foto-sübutların götürüldüyü hadisə yerini ziyarət edə bilər. Bundan sonra, çap edilmiş fotoşəkillər hadisə yerinin foto-lövhəsində qruplaşdırılır, sübut kimi istintaq orqanına təqdim edilir və cinayət işinə daxil edilməsi tələb edilir.

**f) Mülki iddia**

Yadda saxlamaq lazımdır ki, təqsirləndirilən şəxsə qarşı cinayət işinin açılmasından əlavə, mülki iddialar da qaldırıla bilər. Dəymiş ziyan zərər çəkmiş şəxsin cinayət nəticəsində məruz qaldığı faktiki maddi zərər, habelə hadisə ilə əlaqədar keçirdiyi mənəvi sarsıntı əsasında hesablanır.

Zərər çəkmiş şəxsin məruz qaldığı maddi və mənəvi zərər, zorakılıq nəticəsində baş verən sarsıntı ilə birbaşa və dolayı şəkildə əlaqəli olan xəstəliklərin meydana çıxması cinayət işi çərçivəsində psixoloji zərərə görə kompensasiya üçün əsas təşkil edir. Psixoloji zərərə görə kompensasiyanı artıra biləcək əlavə faktorlardan biri hadisənin KİV vasitəsilə, həmçinin zərər çəkmiş şəxsin yaşadığı şəhər və ya kənd sakinləri arasında ictimailəşdirilməsidir. Psixoloq rəyinin alındığı təqdirdə, psixoloji zərərə görə kompensasiyanın hesablanması zamanı ölçülə bilən sübut hesab edilir.

## 4.3. Qısamüddətli və uzunmüddətli mühafizə orderlərinin alınması

***Mühafizə orderi nədir?***

Mühafizə orderi məişət zorakılığından zərərçəkmiş şəxsin müdafiəsini təmin edən mexanizm olaraq zərərçəkmiş şəxsin zorakılığa yenidən məruz qalmasının qarşısını almaq məqsədi daşıyır.

Tətbiq olunma müddəti, tətbiq edən orqan, orderdə nəzərdə tutulan tədbirlərin xarakteri nəzərə alınmaqla, qanunvericilikdə qısamüddətli və uzunmüddətli mühafizə orderləri nəzərdə tutulmuşdur.

***Qısamüddətli mühafizə orderi***

Qısamüddətli mühafizə orderi yerli icra hakimiyyəti orqanı tərəfindən verilir.

Yerli icra hakimiyyəti orqanı, müraciət edilən vaxtdan 24 saat ərzində zorakılığı törədən şəxsə xəbərdarlıq edir və zərərçəkmiş şəxsə dərhal 30 gün müddətinədək qısamüddətli mühafizə orderi verir.

Qısamüddətli mühafizə orderinə əsasən məişət zorakılığını törətmiş şəxsə bunlar qadağan edilə bilər:

- məişət zorakılığının təkrar törədilməsi;
- zərərçəkmiş şəxsin olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması;
- zərərçəkmiş şəxsə narahatlıq verən digər hərəkətlərin törədilməsi (yerli icra hakimiyyəti orqanının mülahizəsinə əsasən ağlabatan və mütənasib qadağalar, məsələn, zərərçəkmiş şəxsə zəng etmək, onun iş yerinə getmək və s.).

Qısamüddətli mühafizə orderində təkcə hər hansı hərəkətin edilməsinin qadağan olunması deyil, həm də zərərçəkmiş şəxsin xeyrinə müəyyən hərəkətlərin edilməsi ilə bağlı vəzifələrin qoyulması imkanı qanunvericiliklə müəyyən olunmalıdır.

**Qısamüddətli mühafizə orderi icra sənədi sayılır və dərhal icraya yönəldilir.** ("İcra haqqında"Qanunun, maddə 6.1.9 və 13.1.5).

Qısamüddətli mühafizə orderinin tələblərinə əməl olunmamasına görə məsuliyyəti müəyyən edən xüsusi norma olmasa da, cavabdeh tərəfi müəyyən hərəkətləri etməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən icra sənədinin icra olunmamasına görə inzibati məsuliyyət haqqında ümumi normalar ("İcra haqqında" Qanun maddə 82.1 və İnzibati Xətalar Məcəlləsi, maddə 528.1) tətbiq edilir. Cinayət Məcəlləsinin 306-cı maddəsinin ancaq məhkəmə qərarının icra edilməməsinə görə cinayət məsuliyyəti müəyyən etdiyini, qısa müddətli mühafizə orderinin isə qeyri-məhkəmə orqanı tərəfindən verildiyini nəzərə alaraq, qısamüddətli mühafizə orderinin tələblərinə əməl olunmaması cinayət məsuliyyəti yaratmır.

***Uzunmüddətli mühafizə orderi***

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə işlərə xüsusi mülki mühakimə icraatı qaydasında ümumi məhkəmələr (zərərçəmiş şəxsin yaşadığı yer üzrə) tərəfindən baxılır.

Məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxs verilmiş xəbərdarlığa və qısamüddətli mühafizə orderinin tələblərinə əməl etmədikdə, zərər çəkmiş şəxs və ya yerli icra hakimiyyəti orqanı uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir.

Ərizəyə məhkəməyə təqdim olunduqdan sonra üç gün müddətində baxılmalıdır. Zərurət olduqda ərizəyə dərhal baxılması imkanı qanunvericilikdə müəyyən olunmalıdır.

İşə qapalı məhkəmə iclasında baxılır.

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə qətnamədə məişət zorakılığını törətmiş şəxsə aşağıdakılardan biri və ya bir neçəsi qadağan edilir:

- məişət zorakılığının təkrar törədilməsi;
- zərər çəkmiş şəxsin olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması;
- zərər çəkmiş şəxsə narahatlıq verən digər hərəkətlərin edilməsi.

Eyni zamanda aşağıdakılar da uzunmüddətli mühafizə orderində göstərilə bilər:

- məişət zorakılığını törətmiş şəxsin yetkinlik yaşına çatmamış uşaqları ilə ünsiyyət qaydaları;
- yaşayış sahəsindən və ya birgə əmlakdan istifadə qaydalarının müəyyən edilməsi;
- zərər çəkmiş şəxsə tibbi və ya hüquqi yardımın göstərilməsi ilə bağlı xərclərin məişət zorakılığını törətmiş şəxs tərəfindən ödənilməsi şərtləri;
- uzunmüddətli mühafizə orderinin verilməsi barədə qətnamənin icra edilməməsinə görə məsuliyyətin izah edilməsi barədə məlumat.

Uzunmüddətli mühafizə orderi 30 gündən 180 günədək verilir. Mülki Prosessual Məcəllənin müvafiq normalarının təhlili göstərir ki, məhkəmə "Uzunmüddətli mühafizə orderi" adlı ayrıca sənəd vermir, belə ki, mühafizə orderi və məhkəmə qətnaməsi eyniləşdirilir.

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə şikayətin verilməsi qərarın icrasını dayandırmır. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə məhkəmə qətnaməsi dərhal icraya yönəldilir.

Uzunmüddətli mühafizə orderinini tələblərinin icra olunmamasına görə məsuliyyəti müəyyən edən xüsusi norma olmasa da, məhkəmə qərarlarının icra edilməməsi ilə əlaqədar məsuliyyət barədə ümumi normalar tətbiq olunur (İXM, maddə 528.1; Cinayət Məcəlləsi, maddə 306.1).

## 4.4 Ədalət mühakiməsi. Adekvat cəzanın labüdlüyü və kompensasiya tələbi

***Ədalətli mühakiməsini necə təmin etməli?***

Konstitusiya hər kəsin hüquq və azadlıqlarının məhkəmə vasitəsilə müdafiəsinə təminat verir. Məhkəmə bu müdafiəni ədalət mühakiməsi vasitəsilə həyata keçirir. İstər mülki və inzibati, istərsə də inzibati xəta və cinayət işlərində insanların mühakimədən, məhkəmədən ədalət gözləntisi olur.

Məişət zorakılığı ilə bağlı işlərdə mühakimənin ədalətliliyinə aşağıdakılar bilavasitə təsir edir:

- müvafiq məhkəmə prosedurları barədə məlumatlılıq;
- bütün mərhələlərdə zərərçəkmiş şəxsin mənafeyinin qorunmasının prioritet təşkil etməsi (məsələn, şikayət ərizəsinin geri götürülməsi üçün zərər çəkmiş şəxsə təzyiq etməmək, zərər çəkmiş şəxsin hüquqlarına hörmət və fikirlərinə xüsusi önəm vermək), gender məsələlərinə və uşaqlara həssas yanaşma, zərərçəkmiş şəxsi onun zorakılıqla bağlı ərizəsinin ciddi qəbul olunduğuna inandırma, girov müqabilində azadlığa çıxma prosesində zərərçəkmiş şəxsin zorakılığa məruz qalması risklərinin qiymətləndirilməsi;
- ədalət mühakiməsinin vaxtında həyata keçirilməsi, məişət zorakılığı ilə bağlı işlərin prioritet təşkil etməsi;
- ədalət mühakiməsinə çıxışın sadələşdirilməsi (sadələşdirilmiş və istifadəsi asan prosedurlar, münasib qiymət, pulsuz hüquqi yardım imkanı və s.);
- məhkəmə zalında təhlükəsizliyin, zərərçəkmiş şəxsin məhkəməyə inamını təmin edəcək mühitin yaradılması (məhkəmə iclasında zərərçəkmiş şəxsin özünə yaxın bildiyi şəxsin onun yanında olmasına icazənin verilməli, zərərçəkmiş şəxslə təqsirləndirilən şəxs arasında birbaşa təmasın olmamasının təmin edilməli və s.);
- şəxsi həyat sirrinin qorunması, konfidensiallığın təmin edilməsi;
- zərərçəkmiş şəxsin ikinci dəfə qurban olmaq ehtimalını istisna edən tədbirlərin görülməsi;
- bütün zəruri dəlillərin məhkəməyə təqdim olunmasının təmin edilməsi;
- hüquq pozuntusunun xarakterinə, ağırlığına uyğun tədbirlərin görülməsi (maddi və mənəvi zərərin tutulması, adekvat cəzanın, inzibati tənbehin verilməsi).

Uzunmüddətli mühafizə orderinin verilməsi ilə bağlı bəzi məhdud şəkildə tətbiq edilən ayrıca qaydalar istisna olmaqla, məişət zorakılığı ilə bağlı olan məhkəmə işlərində heç bir xüsusi prosedur qaydalarının müəyyən olunmadığına görə, bu işlərdə ümumi prosessual normalar tətbiq olunur. Bu baxımdan hakimlərin məişət zorakılığı ilə bağlı işlərə baxarkən (mülki, inzibati və cinayət işləri üzrə) AİHM-nin presedent hüququ təcrübəsini (case law) öyrənmələri və onlara istinad etmələri olduqca vacibdir. Belə təcrübənin reallıqda məhkəmələr tərəfindən tətbiqi prosesində maarifləndirmənin, habelə ixtisaslaşmış hakimlərin hazırlanması ilə yanaşı, vəkillərin rolu da əvəzsizdir. Vəkillər, işə dair ərizə və şikayətlərində, o cümlədən şifahi mülahizələrində AİHM-nin uyğun presedentent hüququ təcrübəsinə (case law) istinad etməklə, belə təcrübənin tətbiqinə dəstək verə bilərlər.

**Adekvat cəzanın labüdlüyü**

*Cəza nə vaxt adekvat olur?*

İnsanların məhkəməyə inamını əsas etibarilə cinayətə görə adekvat cəzanın verilməsi təmin edir. Cinayət Məcəlləsinin 8.1-ci maddəsinə əsasən cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır. Törədilən cinayətə görə adekvat cəza təyin olunarsa, cinayət hüququnun mühafizəedici, tərbiyəedici, tənzimləyici funksiyalarına, habelə ümumi və xüsusi xəbərdarlıq funksiyalarına nail oluna bilər.

"Opuz Türkiyəyəyə qarşı" işi üzrə AİHM ərizəçi və onun anasına ciddi bədən xəsarətlərinin yetirilməsinə baxmayaraq, ərizəçinin ərinə kiçik məbləğdə təyin edilmiş cərimə cəzasının, habelə həmin cərimənin hissə-hissə ödənilə bilməsi imkanının səmərəli olmadığın ifadə etmiş, və bu qərarı hakimiyyət orqanlarının zorakılığı törətmiş şəxsə qarşı tolerant yanaşması kimi xarakterizə edərək, zorakı davranışa qarşı preventiv və ya çəkindirici təsirə malik olmadığını bildirib.

Məişət zorakılığına görə cəza, cinayətin ağırlığına uyğun olmaqla aşağıdakı məqsədlərə xidmət etməlidir:

- məişət zorakılığını qınamaq və onun qarşısını almaq;
- zərər çəkmiş şəxsin və potensial zərər çəkmiş şəxslərin təhlükəsizliyini təmin etmək;
- digər şəxsləri məişət zorakılığı törətməkdən çəkindirmək;
- zorakı davranışı dayandırmaq, şəxsin ikinci dəfə qurban olma ehtimalını istisna etmək və s.

**Kompensasiya tələbi**

*Kompensasiya nədir?*

Kompensasiya – vurulmuş maddi və mənəvi zərərin əvəzinin ödənilməsinə dəlalət edir. Kompensasiya pozulmuş hüquqların bərpası formalarından birini təşkil etməklə, maddi xarakter daşıyır, yəni vurulmuş zərərin əvəzinin pulla ödənilməsini nəzərdə tutur. Pozulmuş hüquqların bərpasının prosessual xarakteri isə hüquq pozuntusunun müvafiq orqanlarda araşdırılmasının və adekvat cavab tədbirinin görülməsini (məsələn, cəza təyini, cərimənin tutulması) ehtiva edir.

*Kompensasiya necə və hansı məbləğdə müəyyən olunmalıdır?*

Qanunvericilikdə məişət zorakılığına məruz qalmış şəxslərə kompensasiyanın verilməsi ilə əlaqədar xüsusi normalar yoxdur. Qeyd edilən məsələlərə ümumi qaydada - hüquq pozuntusu (delikt) nəticəsində vurulmuş maddi və mənəvi zərərin əvəzinin ödənilməsi şəklində mülki mühakimə icraatı qaydasında baxılır.

Xüsusi həssas yanaşma əsas götürülməklə, məişət zorakılığı halları baş verdikdə kompensasiya məsələlərində aşağıdakılar nəzərə alınmalıdır:

- cinayət işlərində maddi kompensasiya azadlıqdan məhrum etmə ilə bağlı cəzanın əvəzlənməsi üçün istifadə olunmamalıdır;
- kompensasiyanın məbləği təyin olunarkən o, təkcə zorakılıqdan əvvəlki vəziyyətin bərpasına deyil, zorakılığa məruz qalmış şəxsin həyatında müsbət dəyişikliklərə nail olma, habelə zorakılığa səbəb olan qeyri-bərabərliyin aradan qaldırılmasına xidmət etməlidir.
- zərər çəkmiş şəxsə dəymiş mənəvi və maddi zərər mümkün qədər yüksək qiymətləndirilməli, və bu zaman təkcə fiziki zədə deyil, psixoloji zərər, emosional pozuntu, itirilmiş imkanlar, cəmiyyətə yenidən inteqrasiya və digər amillər diqqətə alınmalıdır.
- kompensasiyanın məbləği müəyyən edilərkən sübutetmə yükünün bütün ağırlığı iddia edənin – zorakılığa məruz qalanın üzərinə qoyulmamalıdır.

İstanbul Konvensiyasına əsasən, zərər çəkmiş şəxsə dəymiş maddi və mənəvi zərərə görə kompensasiyanın ödənilməsi  üçün ilk növbədə zorakılığı törədən şəxs məsuliyyət daşısa da, qurbana ciddi bədən xəsarəti və ya onun sağlamlığına zərərin vurulduğu hallarda ikinci dərəcəli məsuliyyəti dövlət daşıyır. Dövlət zərərçəkmiş şəxsin təhlükəsizliyinə lazımi diqqət yetirməklə yanaşı, ödədiyi kompensasiyanı zorakılıq əməlini törətmiş şəxsdən reqres qaydasında geri tələb edə bilər.

## 4.5. Ailə mübahisələrinənin mülki mühakimə icraatı çərçivəsində məişət zorakılığı məsələləri

Ailə mübahisələrinə mülki mühakimə icraatı qaydasında ümumi məhkəmələrdə baxılır.

Bir qayda olaraq aşağıdakı məsələlər üzrə ailə mübahisələrinə baxılır:

- nikahın pozulması;
- uşaqla ünsiyyət;
- aliment;
- uşağın yaşayış yerinin, hansı valideynlə qalmasının müəyyən edilməsi;
- uşağın digər valideynin razılığı olmadan ölkə hüdudlarından kənara çıxarılması;
- valideynlik hüquqlarının məhdudlaşdırılması;
- valideynlik hüquqlarından məhrum etmə və s.

Ailə hüququ ilə bağlı bütün məhkəmə işləri mütləq qaydada məişət zorakılığı baxımından nəzərdən keçirilməlidir.

Məhkəmənin tərəflərin və ya digər şəxslərin hərəkətlərində cinayətin əlamətlərini aşkara çıxardığı halda xüsusi qərardad qəbul etməklə prokurora xəbər verməsi barədə Mülki Prosessual Məcəllədə ümumi norma nəzərdə tutulmuşdur.

Hər hansı mülki işin araşdırılması zamanı məişət zorakılığı ilə bağlı cinayət xarakterli olmayan hallar aşkar edildiyi təqdirdə hakimin atmalı olduğu addımlar qanunvericilikdə aydın şəkildə müəyyən olunmasa da, hakim hər kəsin hüquq və azadlıqlarının dövlət təminatı kimi konstitusion prinsipi və Qanunun tələblərini əsas götürülməklə, məişət zorakılığından müdafiə mexanizmlərini bu zorakılığın qurbanı olması ehtimal olunan şəxsə izah etməli, aidiyyatı qurumlara məişət zorakılığı faktı barədə məlumat verməlidir.

Eyni zamanda hakim məişət zorakılığı hallarına dair olan ailə mübahisələri üzrə qərar qəbul edərkən:

- məhkəmə qərarının zərər çəkmiş şəxsə, onun ailəsinə, xüsusilə də uşaqlarına təsirini qiymətləndirməli;
- gender cəhətdən həssas yanaşma sərgiləməli;
- zorakılıqdan zərər çəkmiş şəxslərin maraqlarının müdafiəsini, prioritet təşkil etməsini əsas götürməli;
- iddia predmeti ilə bağlı olmasa belə məişət zorakılığı ilə bağlı halların müəyyən edilməsinə diqqət etməli;
- sübutetmə yükünün ağırlığını qurbanın üzərinə qoymamalı;
- növbəti dəfə qurban olma ehtimalının aradan qaldırılması üçün tədbirlər görməlidir və s.

Məişət zorakılığından zərər çəkmiş şəxslərin hüquqlarını müdafiə edərkən vəkillər iddia ərizələrində, etiraz və mülahizələrdə məişət zorakılığı faktlarını vurğulamalı, zərərçəkmiş şəxsi zorakılıq faktlarını bildirməyə həvəsləndirməli, məhkəmə iclaslarında daim diqqəti yuxarıda qeyd edilən məsələlərə yönəltməli, məişət zorakılığı hallarına qiymət verilməsinə çalışmalıdır.

## 5-ci fəsil
## Məişət zorakılığından zərərçəkmiş şəxslərə hüquqi yardım

### 5.1. Hüquqi yardımın müyəssərliyi. Pulsuz hüquqi məsləhət, təmsilçilik

**Azərbaycan** Respublikası Konstitusiyasının 61-ci maddəsinə əsasən hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ var və qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilməlidir.

BMT-nin və Avropa Şurasının insan hüquqları üzrə konvensiyalarında, eləcə də Pekin Bəyannaməsi və Fəaliyyət Platformasında zorakılığa məruz qalmış şəxslərin effektiv hüquqi müdafiəsi, onlar üçün uyğun müdafiə vasitələrinin yaradılması və zərərçəkmiş şəxslərə kompensasiya verilməsinin təmin edilməsi üçün müvafiq tədbirlərin görülməsi üzrə dövlətin pozitiv öhdəlikləri müəyyən edilmişdir.

Zorakılıq qurbanlarına hüquqi yardımın göstərilməsi üzrə dövlətin öhdəliyi İstanbul Konvensiyası ilə də ayrıca göstərilmişdir. Belə ki, Konvensiyanın 57-ci maddəsinə əsasən, dövlətlər öz milli qanunvericiliklərində nəzərdə tutulmuş şərtlər daxilində zərərçəkmiş şəxsləri hüquqi yardım və pulsuz hüquqi məsləhət xidmətləri ilə təmin etməlidirlər.

Bundan əlavə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanununda da zərər çəkmiş şəxslərin dövlət vəsaiti hesabına hüquqi yardımla təmin edilməsi təsbit olunmuşdur. Belə ki, qanunun preambula hissəsində deyilir ki, *"[Bu Qanun... məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi... istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir]"*. Eyni zamanda, qanunun məişət zorakılığı ilə bağlı işlərin araşdırılması üzrə dövlətin vəzifələrini müəyyən edən normalarında (maddə 8.0.6 və ) və məişət zorakılığının qarşısının alınması sahəsində nəzərdə tuduğu hüquqi tədbirlər sırasında zərər çəkmiş şəxslərin dövlət vəsaiti hesabına hüquqi yardımla təmin edilməsi vəzifə kimi müəyyən edilmişdir (maddə 14.0.4).

Konstitusiya və beynəlxaq hüquq normaları, eləcə də məişət zorakılığının qarşısının alınması haqqında qanunun tələblərinə görə, məişət zorakılığından zərər çəkmiş şəxslər dövlət vəsaiti hesabına hüquqi yardımla təmin olunmalıdırlar.

"Vəkillər və vəkillik fəaliyyəti haqqında"Azərbaycan Respublikasının Qanunun (1999) 20-ci maddəsinə görə, məhkəmədə hüquqi yardıma ehtiyacı olan aztəminatlı şəxslərə hər hansı bir məhdudiyyət qoyulmadan vəkil tərəfindən göstərilən hüquqi yardım dövlət hesabına həyata keçirilməlidir.

Göründüyü kimi, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanun dövlət hesabına yardımın göstərilməsini yalnız aztəminatlı şəxslərə yalnız məhkəmə prosesində və yalnız vəkillərə həvalə edib. Belə yanaşma məişət zorakılığı qurbanlarının mənafelərini tam təmin etmir. Belə ki:

a) məişət zorakılığı qurbanlarına dövlət hesabına hüquqi yardımın göstərilməsi ilə bağlı "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun müvafiq müddələrı "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunu və digər əlaqədar qanunvercilik aktları ilə uyğunlaşdırılmayıb;

b) "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunun yalnız aztəminatlı şəxslərə dövlət hesabına hüquqi yardımın göstərilməsini nəzərdə tutduğu halda, "Məişət zorakılığının qarşısının alınması haqqında" qanuna görə sözügedən yardımın edilməsi zərər çəkmiş şəxsin maddi vəziyyətindən asılı deyil;

c) "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunun 20-ci maddəsinin tələblərindən belə məlum olur ki, aztəminatlı məişət zorakılığı qurbanı yalnız məhkəmə prosesində dövlət hesabına hüquqi yardımla təmin edilə bilər. Bu isə "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun məişət zorakılığından zərər çəkmiş şəxsin müdafiə üçün müraciət etdiyi andan hüquqi yardımla təmin edilməsini nəzərdə tutan müddəası ilə ziddiyət təşkil edir.

d) dövlət hesabına təyin edilən vəkillər adətən məişət zorakılığından zərər çəkmiş şəxslərə xidmətlərin göstərilməsi sahəsində yüksək ixtisaslı vəkillər olmur və onların keyfiyyətli hüquqi yardım üzrə bilik və bacarıqlarının artırılması, beynəlxalq təcrübəyə əsaslanan gender cəhətdən həssas xidmətlərin göstərilməsi üçün təlimlərdə iştiraklarına ehtiyac olur.

e) məişət zorakılığından zərər çəkmiş şəxslər üçün hələ də yardım mərkəzlərinin yaradılmaması, habelə dövlət hesabına vəkilin cəlb edilməsi məqsədilə qanunvericiliklə müəyyən edilən hüquqi prosedurun xeyli vaxt aldığına görə məişət zorakılığından zərər çəkmiş şəxsin hüquqlarının məhkəməyə qədər və məhkəmədə effektiv və operativ müdafiə olunması işi xeyli çətinləşir.

Bütün qeyd edilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, məişət zorakılığından zərər çəkmiş şəxslərin həm məhkəmədə, həm də məhkəməyə qədər araşdırma prosesində dövlət hesabına yüksək ixtisaslı vəkillər tərəfindən pulsuz hüquqi yardımla təmin edilməsi istiqamətində müvafiq qanunvericilik aktlarının sinxronizasiyası, habelə beynəlxalq təcrübəyə əsaslanaraq vəkillərin gender cəhətdən həssas və keyfiyyətli hüquqi yardım üzrə bilik və bacarıqlarının artırılması vacibdir.

Sözügedən zərurəti nəzərə alaraq, 2019-cu ilin dekabr ayında "Qadınlara və qızlara qarşı zorakılıqla mübarizəyə həsr olunmuş 16 Günlük Fəallıq" kampaniyası çərçivəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Vəkillər Kollegiyası və BMT-nin Azərbaycan nümayəndəliyi arasında məişət zorakılığından zərər çəkmiş şəxslərə hüquqi yardımın təşkilinə dair üçtərəfli anlaşma Memorandumu imzalanmışdır.

Bu Memorandumun məqsədi Azərbaycanda məişət zorakılığından zərər çəkmiş şəxslərin hüquqları və qanuni mənafelərinin hüquq-mühafizə orqanları və məhkəmələrdə müdafiəsi üzrə hüquqi dəstəyin verilməsi, eləcə də hüquqi nümayəndəliyin təşkili, vəkillərin ixtisaslaşdırılması, Vəkillər Kollegiyası ilə yerli yardım mərkəzləri arasında əməkdaşlıq və əlaqələndirmə mexanizmlərini gücləndirməkdən ibarətdir.

Memorandumun icrası çərçivəsində, BMT-nin Əhali Fondunun dəstəyi ilə Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvlüyünə namizədlər üçün nəzərdətutulan icbari təhsil proqramı çərçivəsində "Gender əsaslı zorakılıq qurbanlarına hüquqi yardım: milli və beynəlxalq müdafiə mexanizmləri" ilə bağlı kurrikulum hazırlanmış və onun tədrisi davam etdirilir.

**Pulsuz hüquqi məsləhət və təmsilçilik üzrə minimal standartlar və əsas prinsiplər hansılardır?**

**Ehtiram və məxfilik:** məişət zorakılığından zərər çəkmiş şəxs onunla hər zaman ehtiram və ləyaqətlə davranılması hüququna malikdir. Məxfilik təmin olunmalıdır. Zorakılıq qurbanının şəxsiyyətini açıqlayan yazılı və ya şifahi məlumat yalnız qurbanın razılığı ilə aşağıdakı məqsədlər naminə digər tərəflərə ötürülə bilər:

- Zorakılıq qurbanının həya, sağlamlığı və ya azadlığının təhlükə altında oluğu halda onu müdafiə etmək;

- Başqalarının risk altında olduğu ehtimalı varsa, onların təhlükəsizliyini təmin etmək.

Bütün növ hüquqi xidmətlər göstərilərkən bu prinsiplər rəhbər tutulmalıdır: zorakılıq qurbanlarına etibar etmək və zorakılıq törədən şəxsin məsuliyyətə cəlb olunmasına dəstək vermək.

**Təhlükəsizlik:** zorakılıq qurbanı və onun uşaqlarının təhlükəsizliyinin təmin olunması ən başlıca amil olmalıdır. Təhlükəsizlik dedikdə, təcili fiziki mühafizənin təmin edilməsi ilə yanaşı, zərərçəkmiş şəxsin psixoloji təhlükəsizliyi və sosial inteqrasiyası nəzərdə tutulur.

**Hüquqi yardımın mövcudluğu və müyəssərliyi (əlçatanlığı):** xidmətlər bütün qadınlar üçün açıq olmalıdır (məsələn: etnik azlıqlar, əliliyi olan və ya ucqar bölgədə yaşayan qadınlar). Həyat yoldaşı, partnyoru, keçmiş əri və ya partnyoru və yaxud ailənin hər hansı bir üzvü tərəfindən törədilmiş fiziki, psixoloji, cinsi və iqtisadi zorakılıq qurbanı olmuş bütün qadınların hüquqi yardım xidmətinə çıxışı olmalıdır. Pulsuz hüquqi yardımın zərər çəkmiş şəxsin ehtiyaclarına uyğun və keyfiyyətli şəkildə göstərilməsi üçün vəkillərin beynəlxalq təcrübəyə əsaslanan gender cəhətdən həssas xidmətlər üzrə bilik və bacarıqlarının artırılmasını zərurəti yarana bilər.

**Səlahiyyətləndirmə:** zərərçəkmiş şəxs öz hüquqları haqqında ətraflı şəkildə məlumatlandırılmalıdır. Sözügedən məlumatlandırma şəxsin qanuni insan hüquqları və maraqlarının məhkəməyədək və məhkəmədə müdafiəsi, habelə prosedurlar və prosessual müddətlər də daxil olmaqla, ala biləcəyi xidmətlər haqqında məlumatdan ibarət olmalıdır. Məlumat təqdim edildikdən sonra, zərərçəkmiş şəxsin düşünməsi və qərar verə bilməsi üçün kifayət qədər vaxtı olmalıdır.

Bütün məlumat məsləhət və konsultasiya, təmsilçilik, səlahiyyətləndirmə və zərərçəkmiş şəxsin hüququnun üstun tutulması modellərinə əsaslanmalıdır.

Buna görə də,

- Hər hansı bir iddia və ya şikayət proseduruna başlamazdan əvvəl şəxsin məlumatlı razılığı əldə olunmalıdır.
- Hüquqi yardım göstərən vəkil (hüquqşünas) zərərçəkmiş şəxsin ən əsas maraqlarını prioritetləşdirməlidir (vacibliyinə görə dərəcələndirməlidir).
- İcra hakimiyyətinə və ya polisə/prokurorluğa rəsmi qaydada müraciət edib-etməmək qərarını zərərçəkmiş şəxs özü verməlidir. Əgər qurban şikayət etmək istəmirsə, onun məruz qala biləcəyi riskin dərəcəsi diqqətlə qiymətləndirilməlidir (həyat təhlükəsinin olub-olmaması və s.). Əgər qurban və ya onun uşağının həyatı risk altındadırsa bu hal barədə mütləq məlumat verilməlidir.

## 5.2. Konfidensiallıq və effektiv ünsiyyət:

Qadınlara qarşı zorakılıq sahəsində işləyən mütəxəssislərin əksəriyyətinin qənaətinə görə, ailədaxili zorakılıq, o cümlədən cinsi zorakılıq halları ilə bağlı hüquqi məsləhətlərin verilməsi və vəkillik xidmətlərinin göstərilməsi zorakılığın vaxtında qarşısının alınmasına, qurbanın hüquq və mənafeyinin önə çəkilməklə məsələnin hüquqi yolla həllinə nail olmağa kömək edir.

**Zorakılıqdan zərərçəkmiş şəxslərə hüquqi yardımın göstərilməsi üzrə əsas prinsiplər**

***i. insan haqlarına əsaslanan yanaşma***

İnsan hüquqlarına əsaslanan yanaşma zərərçəkən şəxsin insan hüquqlarının qorunması məsələlərini diqqət mərkəzində saxlamağı tələb edir. Zərərçəkmiş şəxslərə yönəlmiş belə yanaşma zorakılığa məruz qalmış şəxsin hüquqları vəqanuni maraqları, eləcə də ehtiyac və arzularının üstün tutulmasını zəruri edir.

***ii. ayrı-seçkiliyin yolverilməzliyi***

Hüquqi yardım yaşından, dinindən, milliyyətindən, etnik mənsubiyyətindən, cinsi oriyentasiyasından, əlilliyindən, hüquqi, ictimai və ailə vəziyyətindən, siyasi baxışlarından və iqtisadi vəziyyətindən asılı olmayaraq bütün qadınlar üçün müəyyəsər olmalıdır.

Ayrı-seçkiliyə yol verməmək üçün aşağıdakıları nəzərə almaq vacibdir:

- Bütün zərərçəkmiş şəxslərə eyni və ləyaqətli münasibətin göstərilməsi, Şəxsin həyatı və ya həyat tərzi (keçmiş və ya hazırkı) barədə fərziyyələrə və mühakimələrə yol verilməməsi,
- Gender əsaslı zorakılıqla bağlı qərəzli mülahizə və fikirlərinizdən agah olmanız və bunların zorakılıq qurbanına münasibətinizə təsirinin qarşısının alınması. Qərəzli duyğu və düşüncələrə qapılmamaq üçün daimi şəkildə insan haqları yanaşmasını tətbiq etmək vacibdir.

***iii. günahlandırmama***

"Nə üçün onunla ailə qurdunuz?", "Nə üçün ondan boşanmadınız?", "Nə üçün daha əvvəl polisə getmədiniz?" və ya "Nə üçün daha tez vəkil bürosuna gəlmədiniz?" kimi ittihamedici və ya mövzunu dəyişən suallar vermək olmaz. Bu suallar zərəçəkəni günahlandırmaqla yanaşı, yardım üçün müraciət etmiş şəxslərdə pis əhval-ruhiyyə yaradır, onlar üçün imkan yaratmaq və onları ruhlandırmaq əvəzinə onların ümidsizliyə düçar olmasına səbəb olur.

***Hüquqi yardım üçün müraciət edən zorakılıqdan zərərçəkmiş şəxsin hansı hüquqları var?***

- Peşəkar hüquqi yardım əldə etmək,
- Hörmətlə qarşılanmaq,
- Mühakiməyə məruz qalmamaq,
- Düşdüyü vəziyyətlə bağlı hərtərəfli məlumat almaq və müvafiq hüquqi yardımı əldə etmək,
- Onun işinin icraatı zamanı məxfiliyin təmin edilməsindən əmin olmaq,
- Ona hüquqi yardımı münasib yerlərdə və münasib mühitdə təmin etmək,
- Ehtiyacı olduğu digər xidmət və yardımla bağlı məlumatlandırma və yönləndirməni həyata keçirmək.

Hüquqi yardım üçün müraciət etmiş zorakılıq qurbanına adətən öz şəxsi zorakılıq təcrübəsi haqqında danışmaq çətin olur. Zorakılıq qurbanlarına hüquqi yardım göstərən vəkillər (hüquqşünaslar) bunu bilməli və zorakılığa məruz qalmış şəxslərin zorakılıq haqqında tərəddüd etmədən, asanlıqla danışacağı və yaxud daa təfərrüatılı məlumat verəcəklərinə ümid etməməlidir. Bunu nəzərə alaraq vəkillərin (hüquqşünasların) zorakılıq qurbanlarına qarşı olduqca həssas davranması və onlar törədilən zorakılıq haqqında danışmağa cürətləndirməsi çox vacibdir. Buna nail olmaq üçün etibara əsaslanmış münasibətlərin qurulması tələb olunur. Zorakılığa məruz qalmış qadınlar verdikləri məlumat və ifadələrin yanlış məqsədlərlə və yaxud onların əleyhinə istifadə olunmayacağından əmin olmalıdır.

**Effektiv ünsiyyət bacarıqları**

Müştərinin vəkil tərəfindən uğurla müdafiə edilməsi icraatın hər bir mərhələsində vəkilin əldə etdiyi məlumatların dolğunluq səviyyəsindən asılıdır. Əgər gender zorakılığı ilə bağlı iş üzərində çalışırsınızsa, şahidlərin ifadəsi, yazışmalar, tibbi arayışlar, sənədlər, ekspert rəyləri kimi istənilən məlumat mənbələrindən  istifadə etmək lazımdır.

Bu baxımdan, zərərçəkmiş şəxsdə əldə edilmiş məlumat ən mühüm məlumat mənbəyini təşkil edir. Vəkilin əsas məqsədinin hadisə barədə maksimum səviyyədə mötəbər məlumatlar əldə etməkdən ibarət olduğunu nəzərə alaraq, zərər çəkmiş şəxslərlə aparılan söhbət, sorğu-sual və müsahibələr əsas məlumat mənbəyini təşkil edir.

Zərər çəkmiş şəxslə ilkin müsahibə zamanı vəkil yalnız hüquqi halların müəyyənləşdirilməsinə deyil, həm də aşağıdakı amillərə diqqət yetirməlidir:

- Zərər çəkmiş şəxsin psixoloji vəziyyəti - bu, müsahibəyə təsir edən əsas amillərdən biridir və müsahibənin uğurlu və ya uğursuz olmasına səbəb ola bilər;
- Zərər çəkmiş şəxsin hadisəyə münasibətti – mənfi münasibət səbəbindən mötəbər məlumat əldə edə bilmək imkanı məhdudlaşa bilər.

Zorakılıq qurbanı ilə ünsiyyətdə olarkən həmsöhbətinizə diqqət və maraq göstərin, onun gözünün içinə baxmaqla, bədən hərəkətlərindən, səs tonundan, üz ifadələrindən istifadə etməklə, sakit dayanıb dinləməklə qurbanın özünü rahat hiss etməsini təmin edin.

Zorakılığa məruz qalmış şəxsi dinləməklə və onunla həmrəy olduğunuzubildirməklə məruz qaldığı zorakılıq və hüquqi yardımla bağlı ehtiyaclarını ifadə edə bilməsi üçün ona kömək edə bilərsiniz. Bu sizə məsələ barədə ətraflı məlumat almaq, iş üzrə hüquqi məsləhət vermək və zorakılıq qurbanının müdafiəsi üzrə strategiyanızı müəyyən etməyə kömək edə bilər.

***Zorakılıq qurbanı ilə ünsiyyətdə olarkən nəyi etmək olmaz?***

- Sözünü kəsmək,
- Dediklərinə və fikirlərinə dəyər verməmək,
- Düşdüyü vəziyyətə istehza ilə yanaşmaq,
- Yerinə yetirilməsi mümkün olmayan vədlər vermək,
- Cavab vermək istəyi olmadığı halda onu suallarla utandırmaq,
- Problemin yaranmasına səbəb olmuş hadisə və insanları mühakimə etmək,
- Mənəviyyat və əxlaq dərsi keçmək,
- Günahlandırmaq və onu mühakimə etmək.

***Zorakılıq qurbanı ilə ünsiyyət zamanı fəal dinləməyə nə kömək edə bilər?***

- İfadə edilən fikirləri izah etmək və dəqiqləşdirmək üçün şərh etmə və başqa sözlərlə ifadə etmə üsulundan istifadə etmək.
- Şəxsin dediklərini başqa sözlərlə ifadə etmək: “Belə başa düşürəm ki, …”. Bu zaman yeni ifadəni öz sözlərinizlə söyləyin.
- Eyni bir fikrin başqa sözlərlə yenidən ifadə edilməsi həmsöhbətin anlaması barədə daha güclü təəssürat yaradır. Əgər yeni sözlər/terminlər başa düşülməsə, bu, eyni zamanda çaşqınlığa da səbəb ola bilər.
- Fikrin başqa sözlərlə ifadə edilməsi şəxsin bunu rahat qəbul etdiyi halda və mövzunun başa düşülən, asan olduğu halda istifadə edilə bilər.

Sükut fasilələrinin nəzərə alınması: hisslərini cilovlamaq, fikrini cəmləşdirmək, tərəddüdünə (məsələn, “mən zorakılıq haqqında danışım ya yox”) qalib gəlmək üçün şəxsə kifayət qədər vaxt vermək lazımdır.

Aşağıdakı kimi ifadələrdən istifadə etməklə empatiya nümayiş etdirin və zorakılıq qurbanının hisslərinə şərik olduğunuzu bidirin:

- “Sizin yaşadıqlarınızı nəzərə alaraq nə hiss etdiyinizi başa düşürəm”
- “Bu barədə danışmağın sizin üçün nə qədər çətin olduğunu anlayıram”

***Konsultasiya üçün mühitin və yerin təşkili***

- Zorakılıq qurbanı ilə görüş və söhbət üçün təhlükəsiz və rahat yer təmin edilməlidir,
- Zorakılıq haqqında danışmağın çətinolduğunu nəzərə alaraq söhbət üçün ayrıca otaq .
- Qadının övladlarını özü ilə gətirdiyi təqdirdə uşaqlar qeydlərinə qalacaq bir şəxs və ya oynaya biləcəkləri bir otaq ilə təmin edilməlidir (otaqda uşaqlar üçün kitab və ya rəsm üçün kağız-qələmlər olsa daha yaxşı olar).
- “Nə üçün daha tez gəlmədiniz?” kimi günahlandırıcı suallardan çəkinmək lazımdır.
- Əmin olmaq lazımdır ki, mövcud olan digər xidmətlərə (məsələn, psixoloji xidmət, sığınacaq) dair məlumat vərəqələri/kitabçalar mpvcuddur.
- Bir fincan çay və ya bir stəkan su təklif etmək olar.
- Bilmək lazımdır ki, zorakılıq barədə danışmaq insana eyni travmanı/sarsıntını yenidən yaşada bilər və ya zorakılığa məruz qalaraq həyatına davam edən şəxsə həddindən artıq əzab verə bilər. Ona görə də, mümkün qədər müraciət etmiş şəxslə həsas və ehtiyatla davranmaq lazımdır.
- Zorakılıqdan zərər çəkmiş şəxsə yardım etmək niyyətində olduğunuzu, onun tənha olmadığını bildirin, ona ümid verin və onu hüquqi tədbirləri başlatmaq üçün həvəsləndirin.
- Danışmağa imkan yaradan açıq suallar verin (məsələn, “Nə baş verib?”, “Bunu kim edib?”, “Nə etmək istəyirsiniz?”,və s.).
- Qapalı (“hə” və ya “yox” sözləri ilə cavablandırıla bilən) suallardan (məsələn, “Əriniz sizi döyürdü?”, “Boşanmaq istəyirsiniz?”) çəkinin.

***Qeyd olunanların nəzərə alınması vəziyyət barədə ümumi təsəvvürün yaranmasına, qurbanın öz vəziyyətini anlamasına, onun ehtiyaclarını müəyyən etməklə növbəti mərhələdə hansı addımların atılmasını planlaşdırmağa köməklik edəcəkdir.***

## 5.3. Zərər çəkmiş şəxslə ilkin müsahibə və dəlillərin toplanması

Gender zorakılığına məruz qalmış şəxsi sorğu-sual edərkən, hadisənin təfərrüatlarını öyrənmək və bu zaman həm baş vermiş hadisənin, həm də onun baş verməsinə səbəb olan halların əhəmiyyəti olduqca zəruridir. Zərər çəkmiş şəxslə gender əsaslı zorakılığı törədən şəxs arasındakı münasibətləri (hüquqi münasibətləri) və zorakılığı törədən şəxsin gizlətmiş ola biləcəyi və ya zərər çəkmiş şəxsin malik ola biləcəyi faktları (dəlilləri), məsələn, yazışmaları, audio yazıları, şəkilləri və s. müəyyənləşdirmək zəruridir. Bu sübutlar bir neçə nüsxədə saxlanılmalıdır.

Daha əvvəl törədilmiş fiziki zorakılıq, davranışa nəzarət, zərər çəkmiş şəxsə və ya hətta onun ev heyvanına yönələn təhdidlər kimi sistematik zorakılıq aktları barədə hüquq-mühafizə orqanları və ya tibb müəssisələrində (o cümlədən böhran mərkəzlərində) daha əvvəl açılmış şəxsi işlər (varsa) haqqında məlumatlar və faktlar sübutetmə üçün çox önəmlidir. Məlumatların düzgün şəkildə və vaxtında toplanması cinayətin təsvirini aydın şəkildə dərk etməyə kömək edəcək.

Zərər çəkmiş şəxsə qarşı zorakılığa cəhd göstərilmiş olsa belə, bu mərhələdə o, ən yaxın tibb müəssisəsinə (yaşadığı ərazidə tibbi müayinə üçün travmatoloji məntəqə, xəstəxana və ya klinika) göndərilməlidir. Çünki ekspertlər (tibb mütəxəssisləri) ilk müayinə zamanı görünən fiziki xəsarətləri, eləcə də zərər çəkmiş şəxsin psixoloji vəziyyətinə dair qeydlər edə biləcək.

Vəkil zərər çəkmiş şəxsə məsləhət verərək bildirməlidir ki, həkim bütün bədən xəsarətlərini qeydə almalıdır. Zərər çəkmiş şəxs bilməlidir ki, o, hətta utansa belə bütün xəsarətləri (varsa) göstərməlidir. Onun həkimə verəcəyi məlumat əsasında xəsarətə dair bütün təsvirlər aydın və səliqəli şəkildə qeyd edilməli, onların dəqiq yeri və ölçüsü göstərilməlidir.

Tibb mütəxəssisi xəsarətləri təsvir edərkən hər hansı ümumi ifadələrdən və ya məcazi sözlərdən istifadə etməməlidir.

Zərər çəkmiş şəxs bilməlidir ki, hər hansı tibb işçisi və ya mütəxəssisi, bütün zorakılıq hallarını sənədləşdirməli və pasiyentin (zərər çəkmiş şəxsin) tibbi müayinəsinin nəticələrinə dair arayış və ya rəylə bağlı bütün tələblərə əməl etməlidir.

Zərər çəkmiş şəxsə bildirmək lazımdır ki, məhkəmə-tibbi ekspert yalnız onun razılığı olduğu təqdirdə onun cinsiyyət orqanlarını müayinə edərək, bioloji mənşəli sübut-nümunələri götürüb laboratoriyaya göndərə bilər. Bu sübutlara zərər çəkmiş şəxsin zorakılıq aktı zamanı üzərində olan istənilən əşya (alt paltarı, şəxsi gigiyena vasitələri və s.), eləcə də müayinə zamanı zorakılıq aktının izlərini əks etdirə biləcək digər əşyalar (məsələn, yataq ağları) daxil ola bilər.

Keyfiyyətli dəlillər əldə etmək üçün hadisədən sonra mümkün qədər qısa müddət ərzində bioloji nümunələri götürmək və onları məhkəmə-tibbi ekspertiza laboratoriyasına göndərmək, eləcə də tibbi müayinə və məhkəmə-tibbi ekspertiza həyata keçirmək zəruridir. Bu tədbirlər sonrakı araşdırma və icraat üçün əsas dəlilləri əldə etməyə kömək edə bilər.

*Hadisədən sonrakı 72 saat ərzində qeydə alınmış xəsarətlər və götürülmüş bioloji nümunələr (məsələn, qan, bəlğəm, toxum mayesi) cinayəti düzgün şəkildə təsnifləşdirməyə və hadisənin təfərrüatlarını öyrənməyə imkan verə bilər.* Zərər çəkmiş şəxsə bildirilməlidir ki, heç bir gigiyenik tədbir (duş və ya vanna qəbulu) görməməlidir. O, alt paltarlarını, geyimlərini, yataq dəstlərini olduğu kimi saxlamalıdır, çünki onlarda hadisəni törədən şəxsin qalıq bioloji materialları (toxum mayesi, qan, saç, tər və s.) ola bilər. Zərər çəkmiş şəxsə, həkim müayinəsindən sonra həmçinin cinsi yolla ötürülən xəstəliklərə qarşı dərman qəbul etməyə dair təlimat verilməlidir (həkim müayinəsindən sonra).

Yuxarıda qeyd olunan tədbirlərdən əlavə, vəkil zərər çəkmiş şəxsin reabilitasiyasına şərait yaratmaq üçün psixoloqların və böhran mərkəzlərinin bütün əlaqə məlumatlarını verməlidir.

Bu mərhələdə yadda saxlamaq lazımdır ki, zərər çəkmiş şəxs stress altındadır və bu, onun təhlükələri və ya ona qarşı törədilən cinayətin nəticələrini obyektiv qiymətləndirməsinə imkan verməyə bilər. Bundan başqa, qadının özünün və ətrafındakıların malik olduğu sosial mövhumatlar çox vaxt onun hüquq və mənafelərinin qorunmasına yönələn tədbirlərin icrasına mane olur. Həmçinin, yadda saxlamaq lazımdır ki, qadına qarşı törədilən cinayətlərdə əksər hallarda alçaltmanın olması  onu zorakılıq aktını gizlətməyə vadar edir. Buna görə də, vəkil zərər çəkmiş şəxsə ona qarşı cinayəti törətmiş şəxsləri məsuliyyətə cəlb etmək üçün dərhal müvafiq orqanlara müraciət etməyin çox vacib olduğuna dair izah verməlidir. Bu mərhələdə psixoloji yardım zərər çəkmiş şəxsin öz hüquqlarının qorunmasına imkan verən düşünülmüş qərar qəbul eməsinə kömək edə bilər.

Vəkil zərər çəkmiş şəxsi həm də cinayət işinin açılması ilə əlaqədar görüləcək əsas tədbirlər, o cümlədən tibbi müayinə barədə məlumatlandırmalıdır. Lakin bu elə şəkildə edilməlidir ki, tibbi müayinə və təhqiqat tədbirlərinin görülməsi zərurəti ilə bağlı əlavə qorxu, utanc, nifrət hisslərinin, yaxud digər mənfi emosiyaların yaranmasına səbəb olmasın.

### 5.4. Gender əsaslı zorakılıq qurbanlarına ödənişsiz hüquqi yardımın ("pro bono") göstərildiyi işlərdə meydana çıxan risklər

Ödənişsiz əsaslarda göstərilən hüquqi yardımın ("pro bono") gedişində ortaya çıxan risklərlə bağlı qeyd etmək olar ki, Azərbaycanda gender zorakılığı qurbanları üçün ödənişsiz hüquqi yardım praktikası vəkillərin öz müştərilərinin işini apararkən qarşılaşa biləcəyi bir sıra çətinliklərin olmasını müəyyən etmişdir. Bu risklər aşağıdakı kimidir:

***1) Müştərinin vəkillə və ya vəkilin təmsil etdiyi qurumla münasibəti hüquqi baxımdan rəsmiləşdirməkdən imtina etməsi.***

Bu riski aradan qaldırmaq üçün müştərinin işini qəbul etməyi planlaşdıran vəkil üçün aşağıdakı tövsiyələr irəli sürülə bilər:

- qabaqcadan nümunəvi xidmət müqaviləsi hazırlanmalıdır. Bu müqavilədə icraat zamanı ortaya çıxa biləcək bütün mümkün vəziyyətləri əks etdirmək lazımdır və vəkil bu müqaviləni öz adından iki nüsxədə imzalamalıdır (müştəri müqaviləni imzaladıqdan sonra vaxt baxımından yubanmaların qarşısını almaq üçün);
- müştərinin işi üzrə materiallarla faktiki olaraq tanış olmazdan əvvəl, vəkil hüquqi yardımın göstərilməsi prosedurunu və qarşılıqlı fəaliyyət şərtlərini izah etməlidir;
- izahatdan sonra vəkil müştərini müvafiq müqaviləni iki nüsxədə imzalamağa dəvət edir və müqavilənin bir nüsxəsi dərhal müştəriyə təqdim edilir;
- müştəri müqaviləni imzalamaqdan qəti şəkildə imtina etdikdə, vəkilə müştəri ilə bağlı işi davam etdirməkdən çəkinmək tövsiyə olunur. Çünki hüquqi baxımdan rəsmiləşdirilməyən münasibətlər vəkil üçün əhəmiyyətli dərəcədə şəxsi və peşəkar problem mənbəyinə çevrilə bilər.

2) Müştəri tərəfindən vəkilə məqsədli və ya məqsədsiz şəkildə yanlış məlumatın verilməsi, vəkil tərəfindən iş üzrə mövqenin formalaşdırılması üçün əsas kimi istifadə edilən məlumat.

Əksər hallarda zorakılığa məruz qalmış qadınlar provokativ davranışda ittiham olunur ki, bu da zərər çəkmiş şəxsi müəyyən hallar barədə susmağa, informasiyanı təhrif etməyə, yanlış məlumatın verilməsinə, işin faktiki cəhətləri barədə yalan danışmağa vadar edə bilər. Müştərinin bu cür davranışı onun hüquq və mənafelərinin müdafiəsi prosesinin sonrakı gedişinə çox mənfi təsir göstərə bilər.

Bu baxımdan, vəkilə aşağıdakılar tövsiyə edilir:

- ilkin olaraq, söhbətə başlamazdan əvvəl müştəriyə obyektiv və mötəbər məlumatın verilməsinin əhəmiyyətini izah edin;
- söhbəti elə qurun ki, müştərini maksimum şəkildə cəlb edərək onun etimadını qazana biləsiniz, eyni zamanda, aldığınız bütün məlumatların tam konfidensiallığını təmin edin;

- söhbətin (o cümlədən ilk söhbətin) hansı taktika ilə aparılacağını qabaqcadan düşünün; müştəri barədə ilkin məlumatın olmadığı təqdirdə belə, müştəri ilə ümumi dialoq ssenarisi hazırlayaraq, müxtəlif temperamentlərə sahib olan, habelə, çətin psixoloji vəziyyətlərdə (sarsıntı, şok, depressiya və s.) olan şəxslərlə münasibətlərin qurulmasının incəlikləri ilə tanış ola bilərsiz;
- ilk görüş çərçivəsində səmərəli söhbət qurmağa hazır deyilsinizsə, onu ən yaxın tarixədək təxirə salın;
- baş verənlər barədə dəqiq təsəvvür formalaşdırmaq üçün eyni sualı müştərinin diqqətini həmin məsələyə yönəltmədən müxtəlif formalarda vermək üçün linqvistik metodlardan istifadə edin.

***3) Müştərinin müstəqil şəkildə digər təşkilatlar, dövlət qurumları, fiziki şəxslərə vəkillə razılaşdırmadan müraciət edib öz hüquqi probleminin həllin üçün kömək istəməsi.***

Zorakılığa məruz qalmış qadınlar məhkəmə iclasının təxirə salınmasını, işin bir instansiyadan digərinə ötürülməsini və onların hüquq və mənafelərinin səmərəli müdafiəsinə mane olan digər prosessual hallarla bağlı emosional reaksiya verə bilər. Bu baxımdan, müştəri ona edilən yardımın ödənişsiz olması amilini da nəzərə alaraq, vəkilin iş görmədiyini və ya kifayət qədər fəal olmadığını düşünə  bilər. Bununla əlaqədar olaraq, zorakılığa məruz qalmış qadınların digər təşkilatlara, yaxud digər təşkilatların nümayəndələrinə müraciət etməsi və ya daha yüksək vəzifəli şəxslərə müraciət etməyə cəhdlər etməsi mümkündür. Eyni zamanda, bu cür hərəkətlər vəkillə razılaşdırılmadığı halda vəkilin işlə bağlı hazırladığı mövqenin tətbiqinə ciddi şəkildə mənfi təsir göstərə bilər.

Bu baxımdan, vəkilə aşağıdakılar tövsiyə edilir:

müştəriyə hüquqi yardımın göstərilməsinə dair müqavilədə müştərinin iş üzrə mövqenintətbiqinə mənfi təsir göstərə biləcək müstəqil hərəkətlər etmək hüququnun olmadığına və müştəri tərəfindən bu cür hərəkətlərin edilməsi müəyyən edildikdə, bunun müştərinin işi üzrə sonrakı fəaliyyətin qeyd-şərtsiz dayandırılması üçün əsas yaradacağına dair müddəanı daxil edin;

müştəriyə hər hansı hərəkətlərin əlaqələndirilməsinin vacibliyini izah edin və xəbərdarlıq edin ki, vəkil hüquq-mühafizə və məhkəmə orqanlarının hərəkətlərinə və onların prosessual norma və tarixlərə əməl etməsinə görə məsuliyyət daşımır və məsul tutula bilməz.

***4) Müştərinin vəkillə qarşılıqlı əlaqədən yayınması.***

Müəyyən şəxsi səbəblərdən müştəri işin gedişində vəkillə qarşılıqlı əlaqədən yayınaraq, zəruri məlumatları, sənədləri təqdim etmək, habelə müəyyən istintaq və prosessual hərəkətlərdə iştirak etməkdən imtina edə bilər.

Bu halda vəkil üçün zəruri dəlilləri toplamaq və onları iş üzrə seçilmiş taktika çərçivəsində məhkəməyə təqdim etmək qeyri-mümkün ola bilər. Belə bir vəziyyət həm müştərinin maraqlarına, həm də vəkilin peşəkar nüfuzuna zərər vura bilər.

Bu baxımdan, vəkilə aşağıdakılar tövsiyə edilir:

- iş üzrə mövqenin icrasının gedişində tələb oluna biləcək sübut mənbələrinin ən böyük mümkün həcmini qabaqcadan düşünün və onları müştəridən tələb edin (varsa);
- müştəriyə sübutların toplanmasının vacibliyini izah edin və hər hansı materialların təqdim edilməməsinin prosessual fəsadlarını izah edin;
- müştərinin əsaslandırması əsasında formalaşdırılmış hüquqi mövqeyə vaxtında düzəliş edə bilmək üçün, müştərinin mövqeyinin və ya vəkilə müraciətində bildirdiyi hüquqi problemə münasibətinin dəyişib-dəyişmədiyini vaxtaşırı aydınlaşdırın;
- hüquqi yardımın göstərilməsi haqqında müqaviləyə müştərinin hər hansı məlumatı təmin etməkdən imtina etməsinin, habelə vəkillə ünsiyyətdə olmaqdan imtina etməsinin müqaviləyə qeyd-şərtsiz xitam vermək üçün əsas olduğuna dair müddəa daxil edin.

***5) Müştərinin təklif olunan şərt və qaydalarla vəkillə işləməkdən imtina etməsi.***

Müştərinin işi vəkil tərəfindən qəbul edildikdən sonra, müştərinin öz işinə, eləcə də vəkilə və təklif olunan iş şərtlərinə münasibətinin əsaslı şəkildə dəyişməsi mümkündür. Bu cür dəyişiklik icraat proseslərinin yubanması səbəbindən müştərinin ümidsizliyə qapılması ilə əlaqədar olaraq, müştərinin ətrafından kiminsə təsiri nəticəsində müxtəlif faktorlarla əlaqədar ola bilər.

Təbii ki, müştərinin vəkillə işləməkdən imtina etməsi vəkilin peşəkarlıq nümayiş etdirməməsindən də qaynaqlana bilər. Bu halda, vəkilin öz fəaliyyətini və işin gedişində nümayiş etdirdiyi peşəkarlıq səviyyəsini obyektiv şəkildə qiymətləndirməsi çox əhəmiyyətlidir.

İstənilən halda, müştərinin vəkillə işləməkdən imtina etməsi vəkilin bu işi davam etdirməsi məqsədilə təkid etməsi üçün səbəb ola bilməz. Vəkilin əvəz edilməsi ilə bağlı qərar fərdi şəkildə verilməli, bu zaman ödənişsiz hüquqi yardım proqramında iştirak edən qurumun təşkilati imkanları nəzərə alınmalıdır.

Bu vəziyyətin ən əlverişli şəkildə həlli üçün vəkilə aşağıdakılar tövsiyə olunur:

- müştərinin vəkilin xidmətlərindən imtina etməsi halını hüquqi yardımın göstərilməsi haqqında müqaviləyə daxil edin, bunun hüquqi nəticələrini göstərin, habelə müqavilədə vəkilin dəyişdirilməsinin mümkünlüyünü əks etdirin (təşkilatın belə bir imkanı varsa);
- müştəriyə izah edin ki, işin ilkin müzakirə mərhələsində vəkilin fəaliyyəti onu qane etməzsə, sonrakı qərar üçün bunu dərhal bəyan etməlidir;
- müştəriyə xəbərdarlıq edin ki, vəkilin xidmətlərindən imtina ediləcəyi halda vəkil barədə defamasiya xarakterli informasiyanın yayılması qəbuledilməzdir.

***6) Cəmiyyətdə cinayət işinin böyük əks-səda doğurması və KİV-in bu məsələyə diqqətinin artması***

Gender əsaslı zorakılıq halları tez-tez (bəziləri xüsusi qəddarlıqla və ya azyaşlılara qarşı törədilir) KİV-də və sosial şəbəkələrdə geniş şəkildə işıqlandırılır. KİV tərəfindən işə bu cür marağın olması və ictimaiyyətin prosesi yaxından izləməsi vəkilin işini çətinləşdirə bilər, çünki dərc olunan məlumatlar çox vaxt etibarlı olmaya bilər, yanlış şəkildə tərtib edilə bilər və vətəndaşları yanlış şəkildə istiqamətləndirə bilər. Müştərinin hüquqi problemi barədə ictimai rəy həm müştəriyə, həm də onun mövqeyinə, habelə qərar verən hakimin münasibətinə təsir edə bilər.

Bu baxımdan, vəkil üçün müştərinin işi üzrə məhkəmə baxışı və həllinin təfərrüatlarını əhatə edən məlumatlandırma işin düzgün planlaşdırılması çox vacibdir.

Bu məqsədlə, vəkilə aşağıdakılar tövsiyə edilir:

- bir sıra xəbər agentlikləri ilə münasibətlər qurmaq və onları emosional çalarları olmayan obyektiv məlumatla, yaxud işin mənafeyindən asılı olaraq emosional çalarlı məlumatla təmin etmək;
- Facebook və ya Twitter kimi sosial şəbəkələrdə şəxsi səhifəyə malik olmaq və prosesin gedişatı barədə vaxtaşırı məlumatlar paylaşmaq;
- kommunikasiya mühiti ilə qarşılıqlı əlaqə taktikasından asılı olmayaraq, atılacaq addımları müştəri ilə əlaqələndirmək və razılaşdırmaq;
- müştərinin işi ilə bağlı məlumatların dərc olunduğu bütün hallarda onun şəxsi həyatının toxunulmazlığını təmin etmək (işin konteksti çərçivəsində mümkün olduğu qədər).

***7) Müştəri təkcə hüquqi deyil, digər növ yardıma da ehtiyac duyur (psixoloji, maddi, sosial).***

Bəzi hallarda müştəri hüquqi yardımdan əlavə psixoloji, maddi və sosial yardıma da ehtiyac duya bilər. Belə ki, gender əsaslı zorakılığa, o cümlədən məişət zorakılığına məruz qalan qadınlar çox həssas duruma düşür və təhlükəsiz mənzil təminatı, tam tibbi və sosial xidmətlərə olan ilkin ehtiyaclarını qarşılamaq imkanına malik olmur. Bu baxımdan, müştəri qəbul edilən iş çərçivəsində digər yardım növlərinin təmin edilməsi üçün əlavə xidmətlər istəyə bilər.

Eyni zamanda vəkil işə hədsiz həssas şəkildə yanaşaraq, təbii olaraq müştəriyə kömək etmək istəyə bilər. Lakin yadda saxlamaq vacibdir ki, vəkilin əsas və yeganə məqsədi müstəsna olaraq hüquqi yardım təmin etməkdən ibarətdir.

Vəkilin bu cür qurum və təşkilatlarda müştərinin nümayəndəsi kimi çıxış etməsi, habelə müştərisi üçün maliyyə vəsaitləri cəlb etməklə məşğul olması düzgün deyil. Bu cür davranış müştərinin vəkildən gözləntilərinin artması və nəticədən müştərinin qane olmadığı təqdirdə vəkilin peşəkar qabiliyyətlərindən narazılıqla nəticələnə bilər.

Bu baxımdan, vəkilə aşağıdakılar tövsiyə edilir:

- müştəriyə hüquqi yardımdan başqa öz üzərinə digər yardım növlərinin təmin edilməsi ilə əlaqəli hər hansı əlavə öhdəliklər götürməmək;
- müştərini sosial xidmətlərdən yararlanmaq üçün mövcud imkanlar barədə məlumatla, eləcə də müvafiq qurumların əlaqə məlumatları ilə təmin etmək;
- müvafiq yanaşmanı hüquqi yardımın göstərilməsi ilə bağlı müqavilədə əks etdirmək.

# İstifadə olunmuş ədəbiyyatın siyahısı


**1. “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunu (2010).** http://www.e-qanun.az/framework/20131

**2. “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanunu** (2006). http://www.e-qanun.az/framework/12424

**3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (1999).** http://www.e-qanun.az/code/11

**4. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi (1999):** http://www.e-qanun.az/code/9

**5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (2015).** http://www.e-qanun.az/code/24

**6. “Vəkillər və vəkillik fəaliyyəti haqqında”Azərbaycan Respublikasının Qanunu (1999).** http://www.e-qanun.az/framework/257

**7. BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyası (1979).**

**8. CEDAW General Recommendation No. 19: Violence against women (1992),** available at: https://www.refworld.org/docid/52d920c54.html.

**9. CEDAW General Recommendation No. 35: Gender-based violence against women, updating general recommendation No. 19 (2017),** available at: https://tbinternet.ohchr.org/Treaties/CEDAW/Shared%20Documents/1_Global/CEDAW_C_GC_35_8267_E.pdf

**10. Avropa Şurasının İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Konvensiyası (1950).** https://www.echr.coe.int/Documents/Convention_AZE.pdf

**11. Avropa Şurasının Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Konvensiyası (İstanbul Konvensiyası, 2011).** https://rm.coe.int/istanbul-convention-questions-and-answers-azerbaijani/16809e2904

**12. Məişət zorakılığı ilə bağlı AİHM-nin qərarları:**

Opuz Türkiyəyə qarşı (2009): https://hudoc.echr.coe.int/tur#{%22itemid%22:[%22001-92945%22]}

Kontrová v. Slovakiyaya qarşı (2007): https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-80696%22]}

Eremia və başqaları Moldova Respublikasına qarşı (2013): https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-119968%22]}

Kalucza Macarıstana qarşı (2012): https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-110452%22]}

D.M.D. Rumıniyaya qarşıv (2017): https://archive.crin.org/en/library/legal-database/dmd-v-romania.html

**13. Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə BMT Komitəsinin "Alternativ hesabatın hazırlanması və təqdim edilməsi, fərdi şikayətlər proseduru" barədə təlim materialları (2012)**.http://labourrights-az.org/wp-content/uploads/2013/08/Modul_Alternativ_hesabat.pdf

**14. Ümumdünya Səhiyyə Təşkilatının Media Mərkəzi.** "Qadınlara qarşı zorakılıq: epidemiya nisbətində qlobal sağlamlıq problemi".
https://www.who.int/mediacentre/news/releases/2013/violence_against_women_20130620/en/.

**15. UNFPA/AQUPDK (2018) "Azərbaycanda gender bərabərliyi və gender münasibətləri:** mövcud vəziyyət və imkanlar. Kişilərin Gender Bərabərliyinə Münasibətinə dair Tədqiqatın (IMAGES) nəticələri üzrə Hesabat", Bakı, Azərbaycan.
https://azerbaijan.unfpa.org/az/publications/az%C9%99rbaycanda-gender
b%C9%99rab%C9%99rliyi-v%C9%99-gender-m%C3%BCnasib%C9%99tl%C9%99ri
m%C3%B6vcud-v%C9%99ziyy%C9%99t-v%C9%99-imkanlar

**16**. **Rashida Manjoo, BMT-nin Qadınlara qarşı zorakılıq üzrə Xüsusi Məruzəçisinin Azərbaycana missiyasının yekununa dair Hesabatı.** 2014.
https://www.refworld.org/cgi bin/texis/vtx/rwmain/opendocpdf.pdf reldoc=y&docid=53b51e8a1a2

**17. UNDP/ Bar association of the Kyrgyz Republic (2017) "Practical Manual for Lawyers on Providing Pro-Bono Legal Assistance to Victims of Gender-based Violence".** http://centradvokatov.kg/wp-content/uploads/2018/01/UMK_Eng.pdf